7 dekabr 2018 №89 (1579) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Kinomuzun gənc Qaraşı, ağsaçlı Qorqudu...

## Unudulmaz aktyor Həsən Məmmədovun 80 illik yubileyi doğulduğu Salyan rayonunda qeyd olundu

Xalq artisti, görkəmli aktyor, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı Həsən Məmmədovun 80 illik yubileyi doğulduğu Salyan rayonunda qeyd edildi.

Salyan şəhər 2 saylı tam orta məktəbində keçirilən yubiley mərasimində mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova, mədəniyyət xadimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.

Tədbir iştirakçıları əvvəlcə məktəbin foyesində Həsən Məmmədovun həyat və yaradıcılığını əks etdirən fotosərgi ilə tanış oldular.

Məktəbin akt zalında təşkil olunan mərasimdə ilk olaraq Həsən Məmmədovun həyat və yaradıcılığından, oynadığı rollardan bəhs edən videoçarx nümayiş olundu.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək tədbir iştirakçılarını salamladı. Bildirdi ki, Həsən Məmmədov Azərbaycan kinosunun "qızıl fondu"nu təşkil edən filmlərdə ekran həyatı verdiyi parlaq xarakterlər, həmçinin teatr səhnəsində canlandırdığı obrazlarla mədəniyyət xəzinəmizi zənginləşdirib. Onun yaratdığı bir çox qəhrəmanlar tamaşaçılara yüksək əxlaqi keyfiyyətlər aşılayır və gənc nəslin milli-mənəvi irsə ehtiram ruhunda tərbiyəsində əhəmiyyətli rol oynayır.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev sənətkarın 80 illik yubileyinin qeyd olunması ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamı diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən biri də Xalq artisti, unudulmaz aktyor Həsən Məmmədovdur. O, 1938-ci il noyabrın 22-də Salyan rayonunda doğulub, burada 2 saylı orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olub. Lakin aktyor sənətinə böyük marağı olan Həsən Məmmədov universitetdən çıxaraq bir müddət müxtəlif teatrlarda çalışıb, sonra Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb, tələbəlik illərində müəyyən fasilələrlə Azərbaycan Radiosunda fəaliyyət göstərib.

davamı səh. 2-də



## "Siz bizim fəxrimizsiniz"

### Prezident Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov 90 illik yubileyi ərəfəsində 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib. Dekabrın 5-də dövlət başçısı ordeni yubilyar sənətkara təqdim edib.

Prezident 1-ci dərəcəli "Əmək" ordeninin müxtəlif sahələrdə görkəmli xidmətlərə görə verildiyini, Tahir Salahovun müasir təsviri incəsənətin inkişafında rolunun bütün xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyib: "Siz bizim fəxrimizsiniz, Azərbaycan xalqının görkəmli oğlusunuz, siz həmişə öz sənətinizlə Vətənə sədaqətlə xidmət etmisiniz, Azərbaycanı, xalqımızın istedadını, bizim incəsənətimizi təbliğ etmisiniz, bizi bütün dünyada təmsil edirdiniz və edirsiniz".

1998-ci ildə ulu öndər Heydər Əliyevin Tahir Salahovu "İstiqlal" ordeni ilə təltif etdiyini bildirən dövlət başçısı 2008-ci ildə sənətkara Azərbaycanın ən yüksək ordeni olan "Heydər Əliyev" ordenini və 2015-ci ildə isə Heydər Əliyev Mükafatını təqdim etdiyini vurğulayıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman öz işini sevən, qeyri-adi, istedadlı bir şəxsiyyət olduğunu deyən Tahir Salahov həyat yolunda onunla dostluq münasibətlərindən böyük xoşbəxtlik duyduğunu söyləyib. Rəssam Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə həmişə böyük qayğı və diqqət göstərdiyini vurğulayıb və onun sənətinə verdiyi yüksək qiymətə və mükafata görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

## Gənclərin 90 yaşlı mütaliə ünvanı

### Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yubiley mərasimi keçirildi

Dekabrın 5-də Azərbaycan Dövlət Musiqili Teatrında Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illik yubileyi qeyd olundu.

Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində kitab sərgisi ilə tanış oldular.

Yubiley mərasimində çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə kitabxana sahəsində həyata keçirilən tədbirlərdən danışdı. Nazir kitabxananın əməkdaşlarının əlamətdar yubiley münasibətilə təbrik edərək Prezident İlham Əliyevin Respublika Gənclər Kitabxanası əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında 4 dekabr 2018-ci il tarixli sərəncamını diqqətə çatdırdı.

Əbülfəs Qarayev vurğuladı ki, Azərbaycanda kitabxana işinə dövlət tərəfindən hər zaman diqqət olub və bu gün də var: "Ümummilli lider Heydər Əliyev gənclərimizin savadlı, zəngin dünyagörüşünə malik olmasına böyük önəm verirdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublika Gənclər Kitabxanasının əməkdaşlarının təltif olunması da bu diqqət və qayğının göstəricisidir. Nazir qeyd etdi ki, ölkəmizdə fəaliyyət göstərən kitabxana şəbəkələri təkmilləşir, inkişaf edir və maddi-texniki imkanları yaxşılaşdırılır, beynəlxalq əməkdaşlığı genişlənir. Bu sahədə görülən işlərə Respublika Gənclər Kitabxanası da öz töhfəsini verir".

davamı səh. 3-də

## Bəşəri status qazanan mədəni irs nümunələrimizin sırası genişlənir

Dekabrın 6-da Milli Kitabxanada UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində gerçəkləşən 13-cü sessiyasının nəticələrinə dair mətbuat konfransı keçirildi.

Mətbuat konfransını Mədəniyyət Nazirliyi İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İntiqam Hümbətov açaraq 26 noyabrdan 1 dekabradək davam edən sessiyada ölkəmiz adına əldə olunan uğurlar barədə məlumat verdi. Bildirdi ki, sessiyada Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Ramiz Həsənovun rəhbərliyi ilə ölkəmizin nümayəndə heyəti iştirak edib. Ölkəmizin təqdim etdiyi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiya faylı UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına, Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi "Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" nominasiya faylı isə çoxmillətli mədəniyyət nümunəsi kimi təşkilatın Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilib.





İntiqam Hümbətov sessiyanın nəticəsi barədə Mədəniyyət və Xarici İşlər nazirliklərinin noyabrın 28-də birgə bəyanat yaydığını diqqətə çatdırdı: "Həmin bəyanat ölkəmizin bütün informasiya agentliklərində geniş işıqlandırıldı. Bu dəstəyə görə təşkilatçılar adından Azərbaycanın uğurunu geniş işıqlandıran kütləvi informasiya vasitələrinə təşəkkürümüzü bildiririk".

davamı səh. 2-də



## Minskdə "Mənim Azərbaycanım" adlı sərgi açılıb

səh. 8-də

## Azərbaycan və Özbəkistanın sənətkarlıq şəhərləri qardaşlaşıb

Azərbaycanın İsmayıllı rayonu ilə Özbəkistanın Fərqanə vilayətinin Rişton şəhəri arasında "Qardaşlaşmış şəhərlər" statusu haqqında müqavilə imzalanması ilə bağlı mərasim keçirilib.

Müqavilə ölkəmizin Özbəkistandakı səfirliyi və səfirliyin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə reallaşıb.

Səfir Hüseyn Quliyevin rəhbərliyi ilə Fərqanə vilayətinin Rişton şəhərinə gedən Azərbaycan nümayəndə heyətində İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev, AMM-in direktoru Samir Abbasov, İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elnur Hüseynov və başqa şəxslər yer alıb.

davamı səh. 4-də

## Mavi gözlərin xiffəti

### Gülxar Həsənovanın əziz xatirəsinə

...Gülxar xanım ahıl çağlarında xatırlayardı ki, Ağadadaşla ailə qurandan sonra tamaşalarda sevən cütlük rollarını rejissorlar onlara həvəslə verirmişlər. Hamı bilirdi ki, bu iki yaraşıqlı cavan sənətçi evlidir, süjetdən irəli gələn qucaqlaşıb öpüşmək səhnəsini oynamaq onlara çətin deyil...

...Gülxar xanımın yeganə övladı, sonralar həm dramatik, həm də komik rolların öhdəsindən məharətlə gələcək görkəmli aktyor Hamlet Qurbanov arasında yaş fərqi böyük deyildi. Cəmi 20 yaş. Hamlet körpə olanda isə gözəl Gülxar müharibəyə getmiş üç qardaşını bir-birinin ardınca itirir. Beləcə, bacı məhəbbətini də analıq sevgisinin gözünə qatır...

səh. 6

Ceyhun Hacıbəylinin ailə üzvləri ölkəmizə gəlib



səh. 4

Mədəniyyət naziri dekabrın 14-də Hacıqabul şəhərində vətəndaşları qəbul edəcək

səh. 4



"Bremen musiqiçiləri" Gənc Tamaşaçılar Teatrında

səh. 7

# Kinomuzun gənc Qaraşı, ağsaçlı Qorqudu...

## Unudulmaz aktyor Həsən Məmmədovun 80 illik yubileyi doğulduğu Salyan rayonunda qeyd olundu

*əvvəli səh. 1-də*

Nazirin birinci müavini qeyd etdi ki, Həsən Məmmədov məşhur səhnə xadimi Mehdi Məmmədovun aktyorluq kursunu 1962-ci ildə bitirib, təyinatla Akademik Milli Dram Teatrına göndərilib. Həmin ildən etibarən teatrda fəaliyyəti ilə bərabər “Azərbaycanfilm” kinostudiyasında filmlərdə çəkilib, milli kinomuzun ən maraqlı və yaddaqalan ekran əsərlərində rol alıb: “Həsən Məmmədov “Böyük dayaq”da Qaraş, “Arşın mal alan”da Əsgər, “Gün keçdi” filmində Oqtay, “Arxadan vurulan zərbə”də Qəmərlinski, “Birisi gün gecə yarısı”nda Baba Əliyev, “İstintaq”da Murad, “Dədə Qorqud”da Dədə Qorqud, “Axırıncı aşırım”da Abbasqulu bəy Şadlinski, “Yeddi oğul istərəm”də Bəxtiyar və s. rolları ilə Azərbaycan kinosunun “qızıl fond”unu təşkil edən obrazlar qalereyası yaradıb. O, 50-dən çox filmdə təkrarolunmaz ifa tərzi ilə ekran həyatı verdiyi parlaq xarakterlər, həmçinin teatr səhnəsində oynadığı rollarla geniş tamaşaçı rəğbəti və sevgisi qazanıb”.

Vurğulandı ki, aktyorun çəkildiyi ekran əsərləri bu gün də böyük maraqla izlənilir. Xalq artisti Həsən Məmmədov “İstintaq” bədii filmindəki Murad roluna görə SSRİ Dövlət mükafatına, “Birisi gün gecə yarısı” ekran əsərindəki Baba Əliyev obrazına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci ildə “Şöhrət” ordeni ilə təltif edilib.

Vaqif Əliyev vurğuladı ki, bütün sahələrdə olduğu kimi, dövlətimiz tərəfindən Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafı və gənc nəsillərə təbliği, onun görkəmli nümayəndələrinin xatirəsinin əbədiləşdirilməsi, günümüzdə ədəbiyyat, incəsənət xadimlərinin yaradıcı mühitlə əhatə olunması və onların qayğılarına diqqətlə yanaşılması ilə bağlı çoxsaylı təqdirəlayiq işlər görülür. Müvafiq dövlət proqramları, ölkə başçısı tərəfindən mədəniyyətin müxtəlif sahələrinin inkişafı ilə bağlı imzalanan sərəncamlar mədəni irsə, incəsənətə, mənəvi dəyərlərin qorunub saxlanılmasına yüksək qayğının əyani nümunəsidir. Bununla əlaqədar cari ildə görkəmli mədəniyyət, incəsənət xadimlərimiz – Qara Qarayev, Bülbül, Həsən Turabov, Mehdi Məmmədov, Mikayıl Müşfiq, İsa Muğanna, İmran Qasımov, Aşıq Şəmşir və başqa sənətkarların yubileyləri, həmçinin Azərbaycan kinosunun yaranmasının 120 illiyi, Mingəçevir Dövlət Dram Teatrı və Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi təntənəli şəkildə qeyd edilib. Milli kinonun tərəqqisi, müasir standartlara cavab verən film istehsalı sahəsinin formalaşdırılması daim dövlətin diqqətindədir: “Azərbaycan mədəniyyəti və kino sahəsi ilə bağlı qeyd olunanların işığında, sonda bir daha milli kino və teatr sənətimizin əvəzolunmaz nümayəndəsi Həsən Məmmədovun xatirəsini hörmətlə yad edir, ona Allahdan rəhmət diləyirik”.






Yubiley gecəsinin aparıcısı – Xalq artisti Əbdül Mahmudov Həsən Məmmədovun Azərbaycan kino sənətinə bəxş etdiyi müxtəlif xarakterli obrazlar haqqında danışdı.

Əməkdar incəsənət xadimləri – kinoşünas, rejissor Ayaz Salayev, “Azərbaycanfilm” kinostudiyasının direktoru Müşfiq Hətəmov, xalq artistləri Rafiq Əzimov, Ənvər Həsənov, Ramiz Məlikov, tanınmış şair Oqtay Rza çıxış edərək Həsən Məmmədovun sevə-sevə yaratdığı obrazlar haqqında danışdılar, onun Azərbaycan kinosu tarixində önəmli mövqeyindən söz açaraq sənətkarla bağlı xatirələrini bölüşdülər.

Aktyorun ailəsi adından çıxış edən oğlu Əvəz Məmmədov yubileyin keçirilməsi, Həsən Məmmədovun əziz xatirəsinə göstərilən diqqətə görə minnətdarlığını bildirdi.

**Fariz HÜSEYNOV**

# Xalq artisti Gülxar Həsənovanın 100 illiyi qeyd ediləcək

Görkəmli opera müğənnisi, Xalq artisti Gülxar Həsənovanın anadan olmasının 100 illiyi münasibətilə dekabrın 10-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında yubiley gecəsi keçiriləcək. Gecədə Gülxar Həsənovanın həyat və sənət yolundan söz açılacaq, onun ifasında lent yazıları səslənəcək, iştirak etdiyi tamaşalardan parçalar nümayiş olunacaq. Tanınmış xanəndələrin ifasında konsert proqramı təqdim ediləcək.

Dekabrın 5-də isə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Xalq artisti Gülxar Həsənovanın 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

Muzeyin şöbə müdiri Təranə Zeynalova sənətkarın həyat və yaradıcılığından söz açıb. Qeyd edilib ki, G.Həsənova səhnə fəaliyyətinə Gənc Tamaşaçılar Teatrında başlayıb. Üzeyir Hacıbəylinin məsləhəti ilə 1942-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrına işə qəbul olunub. Burada parlaq, koloritli obrazlar yaradıb.

Xalq artisti Səkinə İsmayılova, yazıçı-publisist Mustafa Çəmənli çıxış edərək sənətkarın yaradıcılığından, onun keçdiyi ömür yolundan danışıblar.

Sonra Gülxar Həsənovanın ifalarından ibarət videomaterial nümayiş olunub.

Tədbir konsert proqramı ilə davam edib.

# Mədəniyyət işçilərinin müasir peşə səriştələri

Mədəniyyət Nazirliyinin təşəbbüsü, Şəki və İsmayıllı Regional Mədəniyyət idarələrinin təşkilatı dəstəyi ilə Zaqatala rayon Suvagil kənd Folklor evində və Ağsu rayon Çiyni kənd klubunda “Mədəniyyət işçilərinin müasir peşə səriştələri” adlı beynəlxalq təlim-seminar keçirilib.

Tədbirdə Belarusdan Xalq Sənətləri və Mədəni Maarifləndirmə İşləri üzrə Metodiki Mərkəzin direktoru Oleq Xmelkov, şöbə müdiri Valentina Volçkova iştirak edib.

Zaqatala rayonunda keçirilən tədbiri giriş sözü ilə açan Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin direktoru Asif Usubəliyev seminar-təlimin mövzusunun aktuallığından, qarşılıqlı təcrübənin vacibliyindən bəhs edib.

Belaruslu qonaq Oleq Xmelkov bildirib ki, ölkənin və bütövlükdə millətin inkişaf prosesinin uğuru xeyli dərəcədə məhz mədəniyyət sahəsindəki uğurlardan asılıdır. Qeyd edib ki, mədəniyyət yalnız ənənələrin dəstəklənməsi vasitəsi deyil, cəmiyyətin və dövlətin humanitar inkişafının effektiv alətlərindən biridir.

Valentina Volçkova isə çıxışında iki ölkə arasında kənd klublarının fəaliyyətində oxşar və fərqli məqamları təhlil edib.

Ağsu rayonunda keçirilən təlim-seminarda İsmayıllı Regional Mədəniyyət İdarəsinin əməkdaşı (Ağsu rayonu üzrə nümayəndə) Cavanşir Şeydazadə belə tədbirlərin əhəmiyyətindən danışıb, mövzu üzrə çıxışlar olub.

# Bəşəri status qazanan mədəni irs nümunələrimizin sırası genişlənir

*əvvəli səh. 1-də*

Şöbə müdiri qeyd etdi ki, ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən bu əlamətdar mədəni hadisənin aktuallığı və bizə olan müraciətlər nəzərə alınaraq bu gün sessiyada iştirak edən hər iki nazirliyin məsul əməkdaşları media nümayəndələrini maraqlandıran sualları cavablandıracaqlar.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının baş katibi Elnur Sultanov bildirdi ki, Azərbaycan 2010-2014-cü illərdə UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin üzvü olub və 2013-cü ildə komitənin 8-ci sessiyasına müvəffəqiyyətlə ev sahibliyi edib. Bu ilin iyununda isə Azərbaycan yenidən, 2018-2022-ci illər üzrə həmin komitəyə üzv seçilib.

Qeyd olundu ki, Hökumətlərarası Komitənin budəfəki sessiyasında 47 nominasiyadan 39-u haqqında müsbət qərar verilib: “Sessiya ölkəmiz üçün bir sıra uğurlu nəticələrlə yadda qaldı. İlk olaraq 2013-cü ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş “Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri”nə dair ölkəmizin beşillik hesabatı qəbul olundu. Hesabatda çövkən atüstü oyun ənənələrinin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilmiş tədbirlər, həmçinin Ermənistanın Azərbaycanın Qarabağ regionunu işğalı nəticəsində bu oyun ənənələrinin həyata keçirilməsinin mümkünsüzlüyü əksini tapmışdı. Qarabağdan zorla qovulmuş Azərbaycan əhalisinin müharibənin acı nəticələrinə baxmayaraq, bu oyunu yaşatmağa çalışdığı və bu istiqamətdə dövlətin icmalara dəstəyi xüsusi vurğulandı”.

Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə diqqətə çatdırdı ki, sessiyada Ermənistan nümayəndə heyəti qeyri-konstruktiv ənənəsinə sadiq qalaraq Azərbaycana qarşı çıxış edərək “Çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri”nə dair hesabatın geri qaytarılmasını tələb edib. Məsələ ilə bağlı geniş müzakirələr aparılıb və Ermənistanın bu cəhdi də, həmişə olduğu kimi, yenə iflasa uğrayıb. Ermənistanın qərarla bağlı təkliflərinin heç biri komitə tərəfindən dəstəklənməyib.



Vasif Eyvazzadə bildirdi ki, “Yallı (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri” faylının məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin bu qədim və tarixi regionunda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, blokada şəraitində olan bu bölgəmizin öz ənənəsini qorumaqda çətinliklər yaşadığını ön plana çəkmək və bu mədəni mirasın UNESCO səviyyəsində qorunmasına nail olmadır.

Qeyd edildi ki, “Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi” nominasiya faylı Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir. Hər iki faylın qəbul edilməsində Ermənistanın təxribat xarakterli cəhdlərinin qarşısı alınıb, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan öncə müvafiq iş aparılıb və ölkəmizin nümayəndə heyəti sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verib. Bədnam ermənilərin “Dədə Qorqud” dastanı ilə bağlı faylın Azərbaycana dair hissəsinə qarşı əsasız çıxışları da heç bir nəticə verməyib. Nümayəndə heyətimiz Azərbaycanın bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktına önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini diqqətə çatdırıb.

Nümayəndə heyətinin üzvləri xüsusi olaraq vurğuladılar ki, UNESCO ilə əməkdaşlığın genişləndirilməsində və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın əvəzsiz xidmətləri var. Məhz Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə bundan əvvəl kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlanma və paylaşma ənənəsi, muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti də bu mötəbər təşkilatın Qeyri-maddi mədəni irs siyahısına, çövkən - ənənəvi Qarabağ atüstü oyun ənənələri isə qurumun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Nümayəndələr mədəni irsimizin qorunması və təbliğinə verdiyi dəstəyə görə Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırıldı.

Sonda iştirakçılar “Azərbaycanın qeyri-maddi mədəni irsi UNESCO-da” adlı kitab sərgisi ilə tanış oldular.

**Lalə AZƏRİ**

# Xalça muzeyində konservasiya üzrə növbəti ustad dərsləri

Azərbaycan Xalça Muzeyində tekstilin konservasiyası üzrə ustad dərsləri təşkil olunub. Ustad dərsləri İCOM Azərbaycan Milli Komitəsinin təşkilatçılığı ilə UNESCO üzrə Azərbaycan Milli Komissiyası, Mədəniyyət Nazirliyi və Xalça Muzeyi ilə birgə əməkdaşlıq çərçivəsində reallaşıb.

Ustad dərslərinin keçirilməsi üçün Doha (Qətər) İslam İncəsənəti Muzeyinin tekstil üzrə aparıcı bərpaçısı Tatyana Jdanova Bakıya dəvət olunub.

O, “Tarixi tekstilin konservasiyası” mövzusunda mühazirə aparıb və praktiki dərslər keçib. Proqram tekstilin sənədləşdirilməsi, liflərin identifikasiyası və mikroskopik analizi, xalça strukturunun identifikasiyası kimi incəlikləri əhatə edib. Xalça muzeyinin kolleksiyasından XVII əsrə aid “Xətai” xalçasının təmizlənməsi və konservasiyası həyata keçirilib.

Tatyana Jdanova arxeoloji və tarixi tekstilin elmi bərpası və konservasiyası üzrə mütəxəssisdir. Onun əsas fəaliyyəti Şərq xalçalarının texniki analizi və İslam İncəsənəti Muzeyinin tekstil kolleksiyası üzrə məlumat bazasının hazırlanması ilə əlaqədir.

Qeyd edək ki, konservasiya üzrə ustad dərsləri Xalça muzeyində 2016-cı ildən etibarən həyata keçirilən “Azərbaycanın mədəni sərvəti” layihəsi çərçivəsində təşkil edilir. Layihənin məqsədi Azərbaycanın mədəni sərvətinin qorunub saxlanılması və xalq yaradıcılığının unudulmaqda olan növlərinin dirçəldilməsidir. Həmin layihə müxtəlif tikmə növləri, xovsuz xalçalar, misgərlik, zərgərlik, keramika və digər milli dekorativ-tətbiqi sənət növlərini əhatə edir.



2016-2017-ci illərdə sözügedən layihə çərçivəsində Azərbaycan Xalça Muzeyində Almaniya və Rusiyadan dəvət olunmuş bərpaçıların iştirakı ilə tekstilin konservasiyası və bərpası üzrə ustad dərsləri, Dağıstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan dəvət olunmuş tikmə ustalarının iştirakı ilə isə tikmə sənəti üzrə ustad dərsləri keçirilib.

# Gənclərin 90 yaşlı mütaliə ünvanı

## Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yubiley mərasimi keçirildi

*əvvəli səh. 1-də*

Əbülfəs Qarayev vurğuladı ki, Azərbaycanda kitabxana işinə dövlət tərəfindən hər zaman diqqət olub və bu gün də var: "Ümummilli lider Heydər Əliyev gənclərimizin savadlı, zəngin dünyagörüşünə malik olmasına böyük önəm verirdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublika Gənclər Kitabxanası əməkdaşlarının təltif olunması da bu diqqət və qayğının göstəricisidir. Ölkəmizdə fəaliyyət göstərən kitabxana şəbəkələri təkmilləşir, inkişaf edir və maddi-texniki imkanları yaxşılaşdırılır, beynəlxalq əməkdaşlığı genişlənir. Bu sahədə görülən işlərə Respublika Gənclər Kitabxanası da öz töhfəsini verir".

Nazir bildirdi ki, Respublika Gənclər Kitabxanası ölkəmizin qabaqcıl kitabxanalarından biri kimi uğurla fəaliyyət göstərir. Burada bir sıra təlim kursları təşkil edilir, yeni layihələr reallaşdırılır: "Gənclər kitabxanasının 90 illiyinin qeyd edilməsi kitabsevərlər üçün əsl bayramdır. Gənclərdə mütaliəyə marağın formalaşdırılmasını, onlarda kitaba marağın yaradılmasını qarşısına məqsəd qoyan kitabxana yeni nəslin bilik və dünyagörüşünün artırılmasında böyük rol oynayır. Kitabxana eyni zamanda bir çox ictimai qurumlarla əlaqələr qurur, gənclər üçün faydalı layihələr gerçəkləşdirir. İnanıram ki, Respublika Gənclər Kitabxanası mütərəqqi ənənələrini qorumaqla gələcəkdə daha geniş spektrdə fəaliyyət göstərəcək".





Sonra kitabxananın bir sıra əməkdaşlarına Mədəniyyət Nazirliyinin fəxri fərmanı təqdim olundu.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova da çıxışında dövlət başçısı tərəfindən kitabxana işinə göstərilən diqqətdən söz açdı. Bildirdi ki, ölkəmizdə kitabxanaçılıq sahəsi inkişaf edir, bu istiqamətdə yeni layihələr reallaşdırılır və yeni üfüqlər açılır: "Kitabxana bəşəriyyətin mədəniyyət və elm xəzinəsidir. 90 illik yubiley münasibətilə Respublika Gənclər Kitabxanasının bütün kollektivini təbrik edirəm".

Kitabxananın direktoru Oruc Quliyev rəhbəri olduğu qurumun tarixinə nəzər saldı. Bildirdi ki, Gənclər kitabxanası böyük inkişaf yolu keçib və Azərbaycan gəncliyinin hərtərəfli inkişafı, onun vətənpərvərlik ruhunda tərbiyəsi yolunda xidmətlər göstərib.

Kitabxananın fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən direktor bundan sonra da yorulmadan çalışacaqlarını vurğuladı.

Milli Məclisin deputatı Fazil Mustafa çıxışında kitabxananın gənclərin tərbiyəsində, asudə vaxtlarının səmərəli təşkilindəki fəaliyyətindən danışdı.

Tədbir daha sonra konsert proqramı ilə davam etdi.

**F.HÜSEYNOV**

# "Kitabxanalar – ənənələr və innovasiyalar"

## Virtual məkanda fəaliyyəti genişləndirmək, sosial şəbəkələrdə gənclərlə sıx ünsiyyət kitabxanaların mühüm vəzifələrindən olmalıdır

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası dekabrın 5-də "Kitabxanalar - ənənələr və innovasiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfransa ev sahibliyi etdi. Tədbir kitabxananın 90 illiyinə həsr olunmuşdu.

Konfransı giriş sözü ilə kitabxananın direktoru Oruc Quliyev açaraq bildirdi ki, bu gün ölkəmizdə 90 illik tarixi olan az sayda kitabxana var. Onlardan biri kimi Gənclər kitabxanası mədəni-maarif sahəsində mühüm rol oynayır. Azərbaycan gəncliyinin hərtərəfli inkişafı, onun milli vətənpərvərlik tərbiyəsi, yüksək təhsil tələbləri, dünyaya açılması, yeniliyə, yeni texnologiyalara yiyələnməsi, milli dəyərlərlə bəşəri dəyərləri uğurla sintez edə bilmək qabiliyyəti kitabxananın fəaliyyətinin əsas ideoloji platformasını təşkil edir.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev ölkə həyatında əlamətdar yubiley münasibətilə təbrik edərək ölkə başçısının Respublika Gənclər Kitabxanası əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında 4 dekabr 2018-ci il tarixli sərəncamını oxudu.

Vaqif Əliyev qeyd etdi ki, 90 il qısa zaman deyil və bu müddət ərzində bir kitabxana öz oxucu kontingentini qoruyub saxlaya, fondunu bir neçə nəslin mütaliə tələbatına uyğun komplektləşdirə bilibsə, demək, onun fəaliyyətini uğurlu hesab etmək olar. Gəncləri cəmiyyətin intellektual üzvü kimi yetişdirmək və onların mədəni inkişafını təmin etmək hər bir toplum üçün ən aktual məsələlər sırasındadır.

Nazirin birinci müavini ölkəmizdə həyata keçirilən gənclər siyasəti və gənclərə dövlət qayğısından söz açdı. Bildirdi ki, Respublika Gənclər Kitabxanası gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, onların mütaliəyə marağının yüksəldilməsində və asudə vaxtlarının səmərəli təşkilində fəal iştirak edir. Müstəqillik illərində kitabxana-informasiya fəaliyyətində baş verən yeniliklər, yeni texnologiyaların tətbiqi bu kitabxananın da qarşısında yeni vəzifələr qoyub. Kitabxana gənclərə işin yeni forma və metodlarının öyrənilməsi istiqamətində fəaliyyətini daha da yüksəltməlidir. Mədəniyyət ocağı müasir dövrdə baş verən qlobal proseslərdə öz yerini tapmalı, gənclərə müasir kitabxana-informasiya xidmətinin təşkili məqsədilə milli-mədəni və elmi irsin qorunması, mühafizəsi, xidmətə verilməsi sahəsində fəaliyyətini beynəlxalq təcrübə və müasir tələblərə cavab verə biləcək səviyyədə təşkil etməlidir. Virtual məkanda fəaliyyətini genişləndirmək, sosial şəbəkələrdə gənclərin daima yanında olmaq məqsədilə Gənclər kitabxanası müntəzəm olaraq yenilikləri öyrənməli, tətbiq etməli, treninq və təlimlər keçirməli, təcrübə mübadilələrinin nəticələrini təhlil etməli və yeni çağırışların önündə hazır olmalıdır.



Sonda Vaqif Əliyev kitabxana əməkdaşlarını bir daha təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Konfrans "Müasir dövrdə akademik informasiya xidmətinin xüsusiyyətləri", "Müasir innovasiyalar və Azərbaycan kitabxanalarına tətbiqi problemi", "Kitabxanaçılıq təhsili və müasir gənclik", "Müasir informasiya resursları və Azərbaycan dilli kontent" və s. aktual mövzularda məruzələrin dinlənilməsi ilə davam etdi. Məruzələr ətrafında fikir mübadiləsi aparıldı.

**FARİZ**

# Avrasiya Kitabxanalar Assambleyasının iclası keçirilib

Rusiya Dövlət Kitabxanasında Avrasiya Kitabxanalar Assambleyasının növbəti, 21-ci ümumi iclası olub. Dekabrın 5-də keçirilən tədbirdə ölkəmizi M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidenti, professor Kərim Tahirov təmsil edib.

İclasda assambleyanın cari fəaliyyəti, eləcə də yaxın iki il üçün irəli sürülən təşəbbüslər müzakirə olunub.

İclasın gündəliyinə əsasən, MDB-yə üzv dövlətlərin milli kitabxanalarının əsas istiqamətlər üzrə birgə fəaliyyət strategiyası, vahid biliklər mühitinin qurulması, fondların formalaşdırılması və inkişafı, kitab abidələri ilə iş, kütləvi kitabxanalar şəbəkəsinin inkişafı, professional tədris proqramlarının işlənməsi istiqamətləri üzrə müzakirələr aparılıb. Müzakirə olunmuş strategiya üzrə təkliflər formalaşdırılıb. Sonda 2019-2022-ci illər üçün Avrasiya Kitabxanalar Assambleyasının baş direktoru vəzifəsinə seçkilər keçirilib, XXII ümumi iclasın keçirilmə yeri və vaxtı müəyyənləşdirilib. 2019-cu ilin MDB-də "Kitab ili" elan edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



Həmçinin MDB-yə üzv ölkələrin kitabxanalararası abonement üzrə bölməsinin 9-cu yığıncağı keçirilib. Yığıncaqda səlahiyyətli nümayəndələrin siyahısı, 2019-cu il üçün bölmənin tədbirlər planı təsdiq olunmaqla hesabatına baxılıb.

# "Hər gedən gəlmiş, mənim ol qəmküsarım gəlməmiş..."

## "Söz" ədəbi layihəsinin növbəti tədbirində Molla Pənah Vaqifin poeziyasına müraciət olundu



Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə reallaşan "Söz" ədəbi layihəsinin dekabrın 5-də Beynəlxalq Muğam Mərkəzində keçirilən növbəti tədbiri böyük şair Molla Pənah Vaqifin (1717-1797) poeziyasına həsr olunmuşdu.

Dərin və incə duyğular şairi olan Molla Pənah Vaqifin şəninə hazırlanan gecə öz tərtibatı və təqdimatı ilə fərqlənirdi. Muğam mərkəzinin foyesində qonaqları musiqi və şeirin sehri ilə salamlayan Vaqif (aktyor Tural Əhməd) onları öz poeziya dünyasına dəvət etdi...

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan verib. Şairin klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir.

Zalda qərarlaşan qonaqları maraqlı gecə gözləyir. Söz və musiqinin vəhdətində Vaqif yaradıcılığının ən gözəl nümunələri təqdim edilir. Tural Əhməd şairin şeirini oxuduqdan sonra səhnəyə muğam müsabiqəsinin qalibi Almaxanım Əhmədli çıxır. O, şairin "Gəlməmiş" rədifli qəzəlini ifa edir.

Gecə boyu əməkdar artistlər Elxan Rza, Hüsniyyə Mürvətova, aktyorlar Kamal Yaşar, Ləman Mərih şairin yaradıcılığından nümunələr səsləndirdilər. Gənc xanəndələr Pərviz Qasımov, Elgiz Əliyev, Könül Məmmədli, tarzən Səbuhi Cəfərov, Azərbaycan Televiziyası və Radiosunun Cahangir Cahangirov adına xoru bulaq kimi axan Vaqif misralarının musiqi ilə harmoniyasından yaranan xoş duyğuları tamaşaçılara bəxş etdilər.

Gecənin sonunda "Söz" ədəbi layihəsinin rəhbəri Nigar Həsənzadə səhnəyə çıxaraq tamaşaçılara təşəkkürünü bildirdi.

**Lalə AZƏRİ**

# İncəsənət məktəbinin rəqs qruplarının uğuru

Azərbaycan Rəqs Assosiasiyasının təşkilatçılığı ilə paytaxtdakı Şəhriyar adına Mədəniyyət sarayında "Azərbaycan kuboku" adlı incəsənət müsabiqəsi keçirilib. Üç yaş qrupu üzrə keçirilən müsabiqədə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin rəqs kollektivləri uğurla iştirak edib.

İstedadlı xoreoqraf Emil Pənahovun rəhbərlik etdiyi "Alov" rəqs qrupu "Yallı" rəqsinin (uşaqlar – 10 yaşadək), xoreoqraf Səbinə İsmayılovanın "Səbinə" rəqs kollektivi isə xarici rəqsin (gənclər – 16 yaş və yuxarı) ifasına görə münsiflər heyətinin yekdil qərarı ilə müsabiqədə birinci yeri tutublar.

**Regional idarələrdən xəbərlər**

# Musiqi məktəbi kollektivinin Gürcüstana səfəri

Sumqayıt Regional Mədəniyyət İdarəsi Abşeron rayon Xırdalan şəhər 11 illik Musiqi məktəbinin kollektivi Gürcüstanda növbəti dəfə səfərdə olub. Kollektiv məktəbin direktoru, Əməkdar müəllim İkram Manafovun rəhbərliyi ilə Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak edib.

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzində təşkil olunan, ölkəmizin Gürcüstandakı səfirliyinin əməkdaşlarının da iştirak etdikləri tədbirdə kollektivin təqdimatında Qara Qarayevin və digər bəstəkarların əsərləri, xalq mahnı və muğamlarımızdan ibarət konsert proqramı maraqla qarşılanıb.

Səfər çərçivəsində məktəbin kollektivi Tbilisidəki Heydər Əliyev adına parkda ulu öndərin abidəsini də ziyarət edib.

# "Səni kim unudar..."

Qusar Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Uşaq incəsənət məktəbinin birgə təşkilatçılığı ilə Mikayıl Müşfiqin anadan olmasının 110 illiyinə həsr olunmuş "Səni kim unudar..." adlı ədəbi-bədii gecə keçirilib. Gecədə Müşfiqin həyat və yaradıcılığını əks etdirən videoslayd nümayiş olunub, poeziyasının özəlliklərindən söhbət açılıb. Şairin şeirləri, sözlərinə yazılmış mahnılar səslənib.

# Regional idarənin qəzetinin növbəti sayı

Şəki Regional Mədəniyyət İdarəsinin mətbu orqanı olan "Mədəniyyət qalası" qəzetinin növbəti sayı çapdan çıxıb. Qəzetin yeni sayında "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının yekun tədbiri, Şəkidə görkəmli kinorejissor Rasim Ocaqovun 85 illik yubileyinin qeyd edilməsi, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur aksiyanın regionlardakı növbəti mərhələsi, Balakəndə Xurma festivalı, Qaxda Milli mətbəx bayramı, Şəkidə keçirilmiş ustad dərsləri və digər mövzularda yazılar dərc olunub.

# Nazir müavini Dünya Mədəniyyət və Turizm Konfransında görüşlər keçirib




Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Rafiq Bayramovun rəhbərliyi ilə nümayəndə heyəti 3-5 dekabr tarixində İstanbul şəhərində Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı (UNWTO) və UNESCO tərəfindən birgə təşkil olunan 3-cü Dünya Mədəniyyət və Turizm Konfransında iştirak edib.

Konfrans çərçivəsində nazir müavini İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, İRCİCA-nın baş direktoru Halit Eren, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ərsoy, Ukraynanın mədəniyyət naziri Yevgeni Nişuk və Monteneqronun mədəniyyət naziri Aleksandr Boqdanoviç ilə görüşüb.

Söhbətlər zamanı müvafiq təşkilatlarla əlaqələrin daha da genişləndirilməsi, mədəni marşrutların inkişaf etdirilməsi, Azərbaycanın beynəlxalq mədəni marşrutlar üzvlüyü, ölkələrlə mədəni sahədə birgə layihələrin həyata keçirilməsi kimi məsələlər müzakirə olunub.

# Mədəniyyət naziri Hacıqabul şəhərində vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev tərəfindən 2018-ci ilin dekabr ayının 14-də, saat 11.00-da Hacıqabul şəhər Heydər Əliyev Mərkəzində (Hacıqabul şəhəri, İsmət Qayıbov küçəsi 7) Şirvan şəhərindən, Sabirabad, Hacıqabul, Saatlı, Kürdəmir, Beyləqan, İmişli, Füzuli və Xocavənd rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar nazirliyin mct@mct.gov.az elektron poçt ünvanı, e-services. mct.gov.az elektron xidmətlər saytı, telefon məlumat sistemi (çağrı mərkəzi: 147), eləcə də (012) 493-92-17 (əlaqələndirici şəxs: Pərviz İsgəndərli - Regional siyasət şöbəsinin müdiri) və (012) 493-55-21 nömrəli telefonlar vasitəsilə qəbula yazıla bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşların həmçinin aşağıda qeyd olunmuş əlaqələndirici şəxslərə müraciət etmələri xahiş olunur.

| Sıra №-si | Şəhər (rayon) | Əlaqələndirici şəxs | Əlaqə telefonu |
|---|---|---|---|
| 1. | Hacıqabul rayonu | Elnur Əmiraslanov | (02120) 4-10-06<br>(050) 214-12-08 |
| 2. | Sabirabad rayonu | Əhməd Ramazanov | (02123) 5-64-34<br>(050) 252-05-52 |
| 3. | Şirvan şəhəri | Əziz Abbasov | (02121) 5-06-46<br>(050) 347-96-66 |
| 4. | Saatlı rayonu | Şərqiyyə Şahpələngova | (02128) 5-20-53<br>(050) 381-14-89 |
| 5. | Kürdəmir rayonu | Elman Məmmədov | (02025) 5-04-14<br>(050) 530-11-55 |
| 6. | Beyləqan rayonu | Nazim Mirzəyev | (02122) 5-15-09<br>(050) 308-33-99 |
| 7. | İmişli rayonu | Nazim Əzimov | (02124) 6-61-89<br>(050) 389-40-31 |
| 8. | Füzuli rayonu | Elşad Cəfərov | (02631) 5-54-64<br>(050) 334-04-39 |
| 9. | Xocavənd rayonu | Aqil Cəfərov | (02122) 3-54-12<br>(050) 579-74-84 |

# Nazirlik Fəxrəddin Manafovla bağlı Rus Dram Teatrının rəhbərliyinə ciddi tapşırıq verib

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, tanınmış kino və teatr aktyoru Fəxrəddin Manafovun Azərbaycan Dövlət Rus Dram Teatrında yaradıcılıq fəaliyyətini dayandırması barədə kütləvi informasiya vasitələrində yayılan bəyanatı Mədəniyyət Nazirliyi və nazirliyin rəhbərliyi üçün çox gözlənilməz olmuşdur.

Bu barədə mətbuata açıqlamasında nazirliyin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İntiqam Hümbətov bildirib.

Şöbə müdiri qeyd edib ki, Fəxrəddin Manafov Azərbaycan mədəniyyətinin, incəsənətinin görkəmli simalarından biridir. O, 40 ilə yaxın müddətdə kino sahəsində fəaliyyəti ilə, bir çox filmlərdə yaratdığı obrazlarla tamaşaçıların böyük rəğbətini qazanmış, respublikamızın hüdudlarından kənarda da milli kino sənətimizi tanıtmışdır. Eyni zamanda son illər Dövlət Rus Dram Teatrının səhnəsində geniş tamaşaçı marağına səbəb olan rollar oynamışdır. Fəxrəddin Manafov yaradıcı fəaliyyəti ilə bərabər, həmçinin bir ziyalı, mədəniyyət xadimi kimi cəmiyyətdə hörmət və nüfuza malikdir.

İntiqam Hümbətov bildirib ki, nazirliyin rəhbərliyi aktyorun mətbuatda yayılan bəyanatı ilə tanış olduqdan sonra məsələnin dərhal araşdırılması ilə bağlı göstəriş vermişdir. Fəxrəddin Manafovun səhnə yaradıcılığı üçün zəruri şəraitlə təmin olunması, onu narahat edən məsələlərin aradan qaldırılması və teatrda fəaliyyətini davam etdirməsini təmin etmək barədə Rus Dram Teatrının rəhbərliyinə ciddi tapşırıq verilmişdir. Hazırda teatrın rəhbərliyi bununla bağlı müvafiq iş aparır. Məsələ nazirliyin rəhbərliyinin diqqət və nəzarətindədir.

"Biz inanırıq ki, bu məsələ tezliklə tanınmış aktyorumuzla teatr rəhbərliyi arasında dialoq və anlaşma şəraitində müsbət həllini tapacaq, Azərbaycan sənətsevərləri Xalq artisti Fəxrəddin Manafovu teatrın səhnəsində yeni-yeni yaradıcılıq layihələrində görəcək və alqışlayacaq", - deyə şöbə müdiri əlavə edib.

# Moskvada Tahir Salahovun yubileyi qeyd olunub

Rusiya Rəssamlıq Akademiyasında Tahir Salahovun 90 illik yubileyi qeyd edilib.

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu mərasimdə Azərbaycanın və Rusiyanın Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Dövlət mükafatı laureatı Tahir Salahovu yubileyi münasibətilə təbrik edərək deyib: "Böyük həmyerlimiz Tahir Salahovu yubileyi münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir. Mənim fikrimcə, bizim dövrdə 90 il yaşamaq və həyat eşqi ilə dolu, cəmiyyətə, öz ailəsinə, dostlarına faydalı olmaq böyük hünərdir".

Səfir dünya şöhrətli rəssamın yubileyinin doğma vətəni Azərbaycanda da geniş qeyd olunduğunu diqqətə çatdırıb, sənətkarın ölkəmizin bütün yüksək dövlət təltiflərinə layiq görüldüyünü vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycanda yeni dövlət təltifi – "Əmək" ordeni təsis olunub, Tahir Salahov bu ordenin birinci dərəcəsi ilə təltif edilib. Səfir əlavə edib ki, böyük ustadın layiq görüldüyü təltiflər onun parlaq yaradıcılığının təsdiqidir.



P.Bülbüloğlu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Tahir Salahova təbrikini oxuyub.

Rusiya Federasiyası Hökumətinin sədr müavini Olqa Qolodets isə Prezident Vladimir Putinin yubilyara ünvanladığı təbrik məktubunu diqqətə çatdırıb. Tahir Salahovun canlı klassik olduğunu qeyd edən O.Qolodets daha sonra deyib: "Biz hamımız Sizin əsərlərinizlə tanışıq və onları sevirik. 2016-cı ildə Tretyakov Qalereyasında sərginiz keçirildi. Sizin işləriniz Tretyakov Qalereyasında daim nümayiş etdirilir və bütün dünyada yüksək qiymətləndirilir. Sizə uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzu edirəm".

Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli yubilyara I dərəcəli "İncəsənətə xidmətə görə" ordenini təqdim edib.

Tahir Salahovun qızı, rəngkar və heykəltəraş, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü Aydan Salahova jurnalistlərə müsahibəsində qeyd edib ki, Tahir Salahov istedadlı rəssamların bütöv bir nəslini yetişdirib. A.Salahova deyib: "Yubiley günündə Tahir Salahovun Vyetnam, Əlcəzair, Meksika, Hollandiya və digər ölkələrdən olan şagirdlərindən minnətdarlıq sözləri səslənib. O, bizə rəsm sənətinin, rəngkarlığın sirlərini, lakonikliyi öyrətməklə bərabər, həm də həyat məktəbi, həyat dərsi keçib – incəsənətə üstünlük verməyi və bu istiqamətdə irəliləməyi öyrədib".

# Ceyhun Hacıbəylinin ailə üzvləri ölkəmizə gəlib

## Qonaqlar Üzeyir Hacıbəylinin ev-muzeyini ziyarət ediblər

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət kimi tanınmasında xidmətləri olan yazıçı-publisist, tərcüməçi, naşir, ictimai xadim, Ceyhun Hacıbəylinin (1891-1962) Fransanın paytaxtı Parisdə yaşayan varisləri – oğlu Timurçinin həyat yoldaşı Paskal Hacıbəyli-Buşe və oğlu Benjamin Hacıbəyli Azərbaycana gəliblər.

Səfər Diasporla İş üzrə Dövlət Komitəsinin Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı həyata keçirdiyi tədbirlər çərçivəsində reallaşıb.

Səfər gedişində paytaxtımızın gəzməli-görməli yerlərinə baş çəkən qonaqlar dekabrın 5-də dahi bəstəkar Üzeyir Hacıbəylinin ev-muzeyində oldular.

Muzeyin direktoru, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov mədəniyyət ocağı barədə qonaqlara məlumat verdi, onları eksponatlarla tanış etdi.

Benjamin Hacıbəyli bildirdi ki, 1993-cü ildən Azərbaycanla əlaqələri yaranıb. Axırıncı dəfə 2006-cı ildə Bakıda olublar. Bu səfərindən də məmnunluğunu dilə gətirən qonaq Üzeyir bəyin royalında ifa etdi. O, sonda muzeyin xatirə kitabına ürək sözlərini yazdı.



Qeyd edək ki, C.Hacıbəylinin gəlini Paskal Hacıbəyli-Buşe Sorbon Universitetinin məzunudur. Avropa Sosial Fondunda inzibati və maliyyə administratoru işləyir. İxtisasca riyaziyyatçı olan Benjamin Hacıbəyli isə Fransanın İqtisadiyyat Nazirliyinin əməkdaşıdır.

**Savalan FƏRƏCOV**

# Azərbaycan və Özbəkistanın sənətkarlıq şəhərləri qardaşlaşıb



*əvvəli səh. 1-də*

Mərasimdə şəhər hakimi Sadıkcon Xaydarov qonaqları salamlayaraq bildirib ki, ölkənin şərqində, Böyük İpək Yolunun üzərində yerləşən Rişton Fərqanə vadisinin ən qədim şəhərlərindən biridir, qədim dövrlərdən Orta Asiyada keramika istehsal edən böyük mərkəz kimi tanınıb. Rişton ustalarının əsərləri Moskvadakı Şərq İncəsənəti Muzeyi, Sankt-Peterburq Etnoqrafiya Muzeyi, Dövlət Ermitajı, ABŞ, Böyük Britaniya və Yaponiyanın muzey kolleksiyalarını bəzəyir.

Səfir Hüseyn Quliyev bildirib ki, Azərbaycan və Özbəkistan şəhərləri arasında "Qardaşlaşmış şəhərlər" layihəsi ilk dəfə reallaşır. Rövşən Ağayev diqqətə çatdırıb ki, İsmayıllı və Rişton arasında oxşar xüsusiyyətlər var. Hər iki rayon öz sənətkarlığı ilə dünyada tanınıb. İsmayıllı rayonunun Lahıc qəsəbəsində ənənəvi xalq sənəti olan mis qabların və müxtəlif məhsulların istehsalı həyata keçirilir. 2015-ci ildə Lahıcın misgərlik sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Qeyd olunub ki, Rişton şəhəri İsmayıllının "Qardaşlaşmış şəhərlər" müqaviləsi bağladığı sayca yeddinci şəhərdir.

Çıxışlardan sonra Sadıkcon Xaydarov və Rövşən Ağayev müqaviləni imzalayıblar.

Sənəd elm, təhsil, mədəniyyət, səhiyyə, idman, turizm və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Nümayəndə heyəti şəhərdəki keramika mərkəzində olub, sənətkarların əl işlərinə baxıb.

# Kitabxanada ədəbi məclislər

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi kitabxanasında "Məcməüş-şüəra" və "Vahid" ədəbi məclislərinin növbəti toplantısı keçirilib.

MKS-nin direktoru Lətifə Məmmədova tədbiri açaraq qonaqları salamlayıb, bu cür ədəbi məclislərin əhəmiyyətini qeyd edib.

"Məcməüş-şüəra" məclisinin sədri, professor, qəzəlxan Şahin Fazil məclisə toplanmış şairləri təqdim edib və onların yaradıcılığından söhbət açıb.

"Vahid" ədəbi məclisinin sədri, tanınmış jurnalist Hacı Rafiq İsmayılov təmsil etdiyi məclisin yetirmələri barədə danışıb, onların ədəbi mühitə verdiyi töhfələrlə məclis iştirakçılarını tanış edib.

Məclisdə şeirlər oxunub və müzakirələr aparılıb.

# Qoruqların beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsi üçün tədbirlər görülür

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunun müvafiq maddəsinə əsasən, abidələrin təhlükəsizliyini, onların funksional təyinatını, memarlıq-estetik görünüşü və uzunömürlülüyünü təmin etmək məqsədilə mühafizə zonaları təyin edilir.

Abidələrin mühafizə zonalarında onlar üçün təhlükə yarada biləcək istənilən fəaliyyət qadağan olunur. Mühafizə zonalarının müəyyən edilməsində əsas məqsəd mədəni irs nümunəsinin yerləşdiyi ərazidə və yaxud inşa olunduğu ərazidəcə qorunub saxlanması və gələcək nəsillərə ötürülməsidir.

Bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov AZƏRTAC-a müsahibəsində deyib.

Dövlət Xidmətinin rəisi bildirib ki, abidələrin mühafizə zonaları ilə bağlı işlər, dövlət başçısının müvafiq fərmanına əsasən, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilir. Abidələrin müəyyən edilmiş mühafizə zonaları barədə məlumatlar müvafiq orqanlara da təqdim olunur: "Hər il mütəmadi olaraq müəyyən sayda abidənin mühafizə zonası mütəxəssislərin iştirakı ilə yaradılır. Həmçinin mühafizə müqavilələri bağlanılır. Tarixi mədəniyyət abidələri xalqın milli sərvətidir. Aparılan monitorinq və nəzarət tədbirləri çərçivəsində yüzlərlə qanunsuz müdaxilənin qarşısını almışıq və tədbirlərimiz mütəmadi olaraq davam etdirilir".

Zakir Sultanov diqqətə çatdırıb ki, Dövlət Xidmətinin tabeliyində 14 tarix-mədəniyyət qoruğu fəaliyyət göstərir. Qoruqların fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı mədəni irs sahəsində dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu məsələlərin həllinə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə" Dövlət Proqramında geniş yer verilib.

Qoruqların əsas vəzifələrindən biri də beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsidir. Qobustan Milli Tarix-Bədii Qoruğu və Qəbələ Tarix-Bədii Qoruğu, Quba şəhərində yerləşən Soyqırımı Memorial Kompleksində müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyalar yaradılıb, ziyarətçilərə yüksək səviyyəli ekskursiya xidmətləri göstərilir. Ekskursiya xidmətlərinin daha da yüksəldilməsi üçün əməkdaşlar mütəmadi olaraq təkmilləşdirmə kurslarına göndərilir. Yaxın vaxtlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə həmin qoruqlarda yaşıllıqların salınmasına da başlanılacaq. Eyni zamanda, Qobustan qoruğu ərazisində ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni yol çəkiləcək.

# Müasir Azərbaycan uşaq və gənclərin rəsmlərində

## Müsabiqənin qalibləri mükafatlandırılıb



Uşaq və gənclər arasında "Müasir Azərbaycan" adlı rəsm müsabiqəsinə yekun vurulub. Dekabrın 4-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı Fond Birjası, "YARAT" Müasir İncəsənət Məkanı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və "İnvest-Az" şirkətinin birgə dəstəyi və təşkilatçılığı ilə reallaşan müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxış edərək layihə barədə məlumat verib. Bildirib ki, sentyabrda elan olunan müsabiqə gənclərin kreativ düşüncələrini reallaşdırmaq baxımından bir fürsətdir. Qeyd edib ki, Prezident İlham Əliyev istedadlı gənclərin inkişafına xüsusi önəm verir, bu kimi tədbirlər də dövlətimizin gənclər siyasətinə vacib töhfədir: "Artıq üçüncü ildir ki, layihənin həyata keçirilməsinə dəstək veririk. Layihədə xüsusi qayğıya ehtiyacı olan uşaqların əsərlərinin də yer alması təqdirəlayiqdir". Diqqətə çatdırılıb ki, müsabiqəyə Bakı da daxil olmaqla 11 şəhər və rayondan 130-a yaxın iş təqdim olunub.

Bakı Fond Birjasının direktoru Vüqar Namazov xatırladıb ki, layihə ilk dəfə 2016-cı ildə reallaşanda cəmi on rəsm əsəri təqdim edilmişdi: "Sərginin keçirilməsində məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, onların gələcək fəaliyyətlərinin motivasiyası, eləcə də ölkəmizdə gənc istedadların üzə çıxarılmasından ibarətdir. Bu sahədə fəaliyyəti genişləndirmək niyyətindəyik. Sevindirici haldır ki, bu il müsabiqədə iştirak edən ən kiçik iştirakçının 4, ən böyüyünün isə 22 yaşı var. Müsabiqədə 30 xüsusi qayğıya ehtiyacı olan iştirakçının əsərləri yer alıb".

Layihəni dəstəkləməkdən məmnunluğunu ifadə edən "YARAT" Müasir İncəsənət Məkanının bədii rəhbəri Suad Qarayeva-Maleki qeyd edib ki, məqsəd istedadlı gənclərin və yeniyetmələrin aşkarlanması, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasıdır. "YARAT" hər zaman yaradıcı gənclərə dəstək verir.

Məlumat verilib ki, müsabiqəyə təqdim olunan əl işlərini Xalq rəssamı Arif Hüseynovun da daxil olduğu rəssam və sənətşünaslardan ibarət münsiflər heyəti qiymətləndirib.

Birinci, ikinci və üçüncü yerin sahiblərinə sertifikat və pul mükafatları təqdim edilib. Müxtəlif nominasiyalar üzrə fərqlənənlər də mükafatlandırılıb.



# Uşaq Filarmoniyasının solistləri tanınmış bəstəkarın yubiley gecəsində

Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, tanınmış bəstəkar, tarzən Hacı Xanməmmədovun 100 illiyinə həsr olunmuş konsert keçirilib. Konsertdə Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə Dövlət Xalq Çalğı Alətləri Orkestri və Dövlət Uşaq Filarmoniyasının solistləri çıxış ediblər.



Əvvəlcə Bəstəkarlar İttifaqının baş məsləhətçisi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənova çıxış edərək Hacı Xanməmmədovun yaradıcılığından, tar ifaçılığında etdiyi yeniliklərdən söz açıb.

Yubiley gecəsində bəstəkarın konsert janrında yazdığı əsərlər və mahnılar səslənib.

Tar və orkestr üçün 2 və 3 saylı konsertlər, kamança və orkestr üçün konsert gənc istedadların ifasında maraqla qarşılanıb. Bundan başqa, bəstəkarın dillər əzbəri olan "Qurban olduğum", "Yaşa könül", "Yenə o bağ olaydı", "Niyə döndü", "Güllü", "Getmə, amandır" və başqa mahnıları zalda əyləşən tamaşaçıların alqışları ilə müşayiət olunub. Nağaraçılardan ibarət "Qala" ritm qrupunun çıxışı da konsertin maraqlı nömrələrindən olub.

## "İfa və təhlil edirik"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin şəbəkəsinə daxil olan F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbində "Fikrət Əmirovun əsərlərini ifa və təhlil edirik" adlı növbəti konfrans keçirilib.



Bəstəkarın anadan olmasının 96-cı ildönümü münasibətilə təşkil olunan şagirdlərin III elmi-ifaçılıq konfransı "Muğam Fikrət Əmirovun yaradıcılığında" mövzusuna həsr olunub.

Budəfəki konfransa 22 nömrəli Niyazi adına, 3 nömrəli C.Hacıyev adına incəsənət məktəblərinin şagirdləri də qatılıblar.

F.Əmirov adına məktəbin direktoru, professor Adilə Yusifova bəstəkarın yaradıcılığında muğam təzahürləri barədə söz açaraq konfrans iştirakçılarına uğurlar arzulayıb.

Şagirdlər bəstəkarın fortepiano, fleyta, tar, klarnet və başqa alətlər üçün pyesləri, "Sevil" operasından vals, "Yar üçün" mahnısını təqdim ediblər. BMA-nın tələbəsi L.Əsədova (professor Z.Quliyevanın sinfi) bəstəkarın "Muğam-poema" əsərini ifa edib.

# BXA-da "Mayak" filmi nümayiş olunub



Bakı Xoreoqrafiya Akademiyasında (BXA) "QİÇS-lə mübarizə günü"nə (1 dekabr) həsr olunmuş "Biz sağlam həyat tərzini seçirik" mövzusunda seminar keçirilib.

Tədbirdə Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin mütəxəssisi Dilşad Mahmudova, Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları – polkovnik İlhamə Qafarova, mayor Kəmalə Ələkbərova, QİÇS-i törədən zərərli vərdiş və həyat tərzi mövzusunda çəkilmiş "Mayak" filminin yaradıcı heyətindən Xalq artisti Məmməd Səfa, ssenari müəllifi Esmira Əyyub, BXA-nın müəllim və tələbələri iştirak ediblər.

BXA-nın Tədris şöbəsinin müdir müavini Mirələsgər Aslanov "QİÇS-lə mübarizə günü"nün tarixi, bu virusların törətdiyi xəstəliklərin ağır nəticələri haqqında məlumat verib. Həkim Dilşad Mahmudova QİÇS-in xüsusilə narkomaniya vasitəsilə yayıldığını qeyd edərək gəncləri sağlamlıqlarını qorumağa, bu sahədə apardıqları maarifləndirmə işlərində yaxından iştirak etməyə səsləyib. Mayor Kəmalə Ələkbərova QİÇS və insan hüquqları, həmçinin həmin xəstəliklə mübarizə haqqında qanunların mühüm müddəalarını diqqətə çatdırıb.

BXA-nın Elm və yaradıcılıq işləri üzrə prorektoru Sonaxanım İbrahimova çıxış edərək gəncləri qeyri-sağlam vərdiş və hərəkətlərdən uzaq olmağa çağırıb.

Mövzu ətrafında müzakirələrdən sonra "Mayak" qısametrajlı bədii filmi (rejissor Fariz Əhmədov) nümayiş etdirilib. Narkoman ər, onun ikinci həyat yoldaşı və ögey oğlunun həyat konfliktindən bəhs edən film Mədəniyyət Nazirliyinin keçirdiyi "Bu meydan, bu ekran" (2011) müsabiqəsinin qalib layihələrindən biri kimi ekranlaşdırılıb.

# "İnanmırdım ki, Bakı tamaşaçıları məni belə isti qarşılasın"

## "Dünyada insanların klassik musiqiyə olan münasibəti əsasən eynidir"

Meksikalı pianoçu Xesus Lepe Riko bu günlərdə (26 noyabr) Beynəlxalq Muğam Mərkəzində solo konsert proqramı ilə çıxış etdi. Konsert Mədəniyyət Nazirliyi, Meksikanın ölkəmizdəki səfirliyi ilə birgə təşkil edilmişdi.

Konsertdən öncə Meksikanın ölkəmizdəki səfiri Xuan Rodriqo Labardini çıxış edərək musiqiçinin yaradıcılığı haqqında məlumat verdi. Bildirdi ki, səfirliyin mədəniyyət sahəsində reallaşdırdığı layihələr iki ölkənin münasibətlərinin inkişaf etməsinə, mədəniyyət və incəsənətin qarşılıqlı təbliğinə və tanıdılmasına xidmət edir. Bu əlaqələr incəsənətin dili ilə xalqlarımızı bir-birinə yaxın edir.

Sonra səhnəyə pianoçu Xesus Lepe Riko dəvət olundu. Tamaşaçılar onun ifasında Bax, Bethoven və Şopen, eləcə də tanınmış Meksika bəstəkarı Manuel M.Ponsenin əsərlərini dinlədilər. Qərb klassikası və Meksika ritmləri həmin gecə qeyri-adi bir ab-hava yaratmışdı. Tamaşaçılar musiqi nömrələrini dinləməkdən böyük zövq aldılar. Sevgi, anlaşma, musiqinin ecazkar sehri və məharətli ifa bir daha təsdiq edirdi ki, musiqinin dili yoxdur. Mahir pianoçu bu əsərlərə həm də qonaq olduğu Azərbaycandan aldığı enerjini və xoş təəssüratın pozitivliyini qataraq ifa edirdi...

Qeyd edək ki, Xesus Lepe Riko Meksikanın Tampiko şəhərində dünyaya göz açıb. Tamaulipas Muxtar və Verakruz universitetlərində musiqi təhsili alıb, ölkəsinin bir sıra mükafatlarına layiq görülüb.



Piano üzrə Beynəlxalq Papantla Festivalının təsisçisi və baş direktoru olan musiqiçi ilə Bakı konsertinin ikinci günü görüşdük. Həmin gün ifaçı Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin nümayəndələri üçün konsert proqramı ilə çıxış edəcəkdi.

### Çin olmuş arzular...

Həmsöhbətimdən öncə Bakıya səfəri və ilk konserti ilə bağlı təəssüratlarını bölüşməsini xahiş etdim.

- Mən inanmırdım ki, Bakı tamaşaçıları məni belə isti qarşılasın. Bu, çox xoş oldu və unudulmaz anlar bəxş etdi. İfama olan rəğbət və şəhəri gəzərkən insanların mehriban olması mənim üçün ən başlıca amildir. Belə münasibət yəqin məni yenidən Bakıya dönməyə sövq edəcək. Çünki bura əsrarəngizdir. Bakıya səfərimə görə Meksikanın Azərbaycandakı səfirliyinə, səfirliyin əməkdaşı, məni paytaxtınızla yaxından tanış edən cənab Mareoya təşəkkür edirəm. Azərbaycanla bağlı təəssüratı uzun zaman unutmayacağam. Düzü, ölkənizə səfərimdə bu cür gözəlliklərlə rastlaşacağım ağlıma gəlməzdi. Paytaxtınızın memarlığı, hündür binalar məni valeh etdi. "Alov qülləri" məni, sözün əsl mənasında, təəccübləndirdi. İki gündür ki, şəhəri gəzirəm. Milli mətbəx nümunələrinizin, xüsusən də simvolik meyvəniz olan narın dadına baxdım. Ən maraqlısı odur ki, Bakı bulvarını gəzərkən uşaqlıq arzum yadıma düşdü. Məktəbdə oxuyarkən xəritədə Xəzər dənizini görəndə düşünürdüm ki, mən bu dənizi yalnız xəritədə görə bilərəm. Amma bu gün arzum reallaşdı. Bu səbəbdən də Bakı bulvarında, Xəzərin sahilində çəkdiyim fotoları meksikalı dostlarıma yolladım. Həmçinin sosial şəbəkədə paylaşıb, "Mən, nəhayət ki, Bakıdayam və qeyd edim ki, havanın soyuq olmasına baxmayaraq, buranın sakinləri qonaqlara çox isti münasibət göstərirlər. Bu şəhər möhtəşəmdir. İnanıram ki, növbəti dəfə Bakıya dostlarım və ailəmlə gələcəyəm. Bu zaman daha çox gəzmək və görmək imkanım olacaq", - deyə yazdım.

**- Azərbaycanla bağlı nə dərəcədə məlumatlısınız?**

- Bilirəm ki, burada gözəl musiqi festivalları keçirilir. Qəbələ festivalı barədə məlumat aldım. Mən yaradıcılığımda klassik janra daha çox üstünlük verirəm. Dünənki konsertdə də Bax, Bethoven, Şopen və Meksika bəstəkarlarının əsərlərini ifa etdim. Həmişə çalışıram ki, Meksika bəstəkarlarının klassik əsərlərini dünyada təbliğ edim. İnanıram ki, Azərbaycanda təşkil edilən musiqi festivallarında nə vaxtsa mənə də iştirak etmək qismət olar və dinləyiciləri Meksika bəstəkarlıq məktəbinin nümunələri ilə tanış etmək imkanı qazanaram.

**- Musiqiçi olmaq da uşaqlıq arzunuz idi?**

- Bizim uşaqlıq dövrümüzdə musiqiyə baxış da, musiqini dinləmək də, musiqiyə həvəs da başqa cür idi. Evdə anam hər gün mənə plastinkada uşaq mahnıları və klassik əsərləri dinlədərdi. O, mətbəxdə yemək bişirərkən mən o vallardakı musiqilərə qulaq asardım. Atam isə həmişə çalışırdı ki, mən yaxşı musiqiləri dinləyim. 9-10 yaşım olanda valideynlərimlə gəzintiyə çıxmışdıq. Bir afişada klassik musiqi axşamı ilə bağlı məlumat var idi. Həmin gecəyə qatıldıq və klassik musiqiləri birlikdə dinlədik. Bu konsertdən sonra marağımı görüb məni musiqi müəlliminin yanına qoydular. Beləcə, musiqi yolum başlandı. Daha sonra təhsil illəri, müsabiqələr və s.

**- Hansı ölkələrdə konsertləriniz olub?**

- Bir çox ölkələrdə həm solo, həm də orkestrlə birgə konsertlər vermişəm. Musiqi festivallarında, müsabiqələrdə iştirak etmişəm. İfaçı daim məşq etməli, öyrənməli və öyrətməlidir. Dünyada insanların klassik musiqiyə olan münasibəti əsasən eynidir. Bu gün çoxsaylı tələbələrim var və onların uğurunu elə öz uğurum kimi dəyərləndirirəm.



### "Azərbaycanlı musiqiçiləri bizim festivalda görmək istərdim"

**- Təsisçisi və baş direktoru olduğunuz Papantla festivalı barədə nə deyərdiniz?**

- Bu, Meksikada ilk beynəlxalq piano festivalıdır və hər il noyabr ayında keçirilir. Dünyanın bir çox ölkələrindən musiqiçilər bu festivala qatılır. Bu layihə barədə fikrimi dostlarımla bölüşəndə arzunun reallaşacağına inanmırdım. Çünki Papantla kiçik şəhərdir. Buna baxmayaraq, festival artıq böyük uğurla öz işini davam etdirir. İki ildən bir keçirilən festivalın devizi isə "Hamı üçün musiqi"dir.

**- Musiqimizlə tanış ola bilmisinizmi?**

- Bir müddət əvvəl internetdə Azərbaycan musiqilərini dinləməyə başladım. Bu əsərlər məndə böyük təəssürat yaratdı. Güclü bəstəkarlıq məktəbiniz var. Bizim növbəti festivala azərbaycanlı musiqiçilərin də qatılmasını istərdim. Bununla həm Azərbaycan musiqisi təbliğ olunar, həm də ustad dərsləri keçərdilər.

**- O zaman sizi yenidən Bakıda görmək, bizim musiqiçilərin isə sizin festivalda çıxışlarını eşitmək arzusu ilə...**

**Lalə AZƏRİ**

# Mavi gözlərin xiffəti

## 100 illik yubileyi qeyd olunan Gülxar Həsənovanın əziz xatirəsinə

### İlk tanışlıq…

Uşaqlığımın fraqmentar yaddaşındakı yarımçıq xatirələrdən biri: anamın bütün nömrələrini saxladığı "Azərbaycan qadını" jurnalında bir yazı dərc olunub. Yazının böyründə jurnal boyu uzun saçlarını babetta düzümündə toplamış yaraşıqlı qadının şəkli verilib. Əlində də enli, gözoxşayan bilərzik var. Yazıdan da belə məlum olur ki, həmin qızıl bilərzik ona Üzeyir bəyin hədiyyəsidir. "Leyli və Məcnun" tamaşasında Leyli rolunda səhnəyə çıxanda hədiyyə edib. Artıq İbn Səlamın zövcəsi olan Leylinin görkəmindəki yoxsulluq hiss olunmasın deyə, Üzeyir bəy o bilərziyi ifaçıya bağışlayır ki, tamaşa zamanı taxsın və ondan… yadigar qalsın.

Düzdür, yaşım az olsa da, Üzeyir Hacıbəylinin kimliyindən, Azərbaycan tarixindəki yerindən xəbərdar idim. Amma Gülxar Həsənovanı həmin müsahibə ilə tanıdım. Çox sonralar biləcəkdim ki, həmin bilərzik məsələsi niyə görə o zaman aktualmış…

Gülxar Həsənovanın Leylini oynayacağı operanın növbəti quruluşunu Soltan Dadaşova tapşırırlar. Soltan müəllim də Leyli ilə Məcnunun səhrada görüş səhnəsində titul personajların əllərini bir-birinə uzatdıqları zaman istəyir ki, ərəb qayda-qanunlarına görə, yalnız ailəli qadınların taxdığı enli bilərzikdən Leylinin də biləyində olsun və Məcnun həmin bilərziyi görəndə diksinib ondan aralansın, "get, get, sən Leyli deyilsən, ey pərizad!.." oxusun. Yəni salonda əyləşmiş üç yüz nəfərdən bəlkə də bir-iki nəfərin bildiyi xırda detala bu qədər incə yanaşma.

…İllər sonra Gülxar xanımı yaxından çox görəcəkdim, onunla həmsöhbət olacaqdım, amma bilərzik söhbətinə marağımın yanlış anlaşılacağından çəkinəcəkdim deyə, Üzeyir bəyin bəxşişindən söz salmayacaqdım. Həm də bizim nəsil muğam operasına maraq göstərən yaşına yetişəndə artıq Gülxar xanım teatrda yalnız Leylinin anasını, Ərəbzəngini oynayırdı, üstəlik, "Leyli və Məcnun" da başqa quruluşda göstərilirdi.

…Hər halda mən onu həmin babetta saç düzümü və bilərzik söhbəti ilə tanıyıb yadımda saxlamışdım.



### Həyat (və) səhnə(sin)də məhəbbət

Gülxar Həsənovanın dünyaya gəldiyi, böyüdüyü, qızlar bulağından su içdiyi çağlarda ucaboy, yaraşıqlı, şirindilli növrəstələr üçün "əsl səhnə görkəmi var" demirdilər. Eləcə deyirdilər ki, bir evin yaraşığı, dosta qismət olmalı qızdır… Onun həyatında isə bütün bunlar olacaqdı… Təkcə bunlarmı?

Hələliksə, Gülxar yeniyetmə, diribaş qızdır. Həkim olmaq arzusu ilə Şəmkirin Bayramlı kəndindən Bakıya gəlib, Tibb Texnikumuna daxil olur. Tələbə yoldaşlarına qoşulub Əli Bayramov klubuna gedir, ansamblda oxuyur, teatr dərnəyində məşğul olur. Bir sözlə, ötən əsrin otuzuncu illərindəki şəhərli gənclər asudə vaxtlarını necə keçirirlərsə, tələbə Gülxar Sultanova (!) da onlardan geri qalmır. Texnikumu bitirib Tibb İnstitutuna daxil olur. Bəs necə? Özü də, ata-anası da onu həkim görmək istəyir axı… Amma olmayanda olmur. Repressiya qurbanı olan Həmid Sultanovla onun həyat yoldaşı Ayna Sultanovanın qohumu olmaq Gülxarın biliyi və qəlbi ilə xəstələrə məlhəm edəcək həkimlik arzusunun üstündən xətt çəkir: institutdan xaric edilir.

Əli Bayramov klubunda ona çıxış yolu göstərirlər: kənddən özünə təzə "yaş kağızı" gətir, pasportunu dəyiş. O yaraşıqlı gənc aktyor var ha, özfəaliyyət dərnəyindəkilərlə məşğul olan Ağadadaşı deyirik, əmisi "pasport stol"un böyüyüdür, sənə başqa soyadla sənəd düzələr, izi birtəhər itirərik. Onsuz da mavi gözləri can alan, dodağının ucunda gülümsəməyi bacaran Gülxardan Ağadadaşın xoşu gəlir. Bəlkə də Ağadadaşdan olsaydı, Gülxarın soyadını birbaşa Qurbanova yazdırardı. Amma hələ tezdir…

Gülxarın içindəsə elə bir təhsil almaq eşqi var ki!.. Həm də fəhmlə anlayır ki, onun seçimi sənət olmalıdır, həm bacarığı, qabiliyyəti o sahəyədir, həm də teatr aləmində onun Sultanovlardan olmağı çətin ki yoluna çəpər çəkər. Hərçənd bu seçim ona valideynlərdən küsülülük, evində qaldığı xalasından aralanıb yataqxanaya yığışmaq bahasına başa gəlir.

Gülxar xanım ahıl çağlarında xatırlayardı ki, Ağadadaşla ailə qurandan sonra tamaşalarda sevən cütlük rollarını rejissorlar onlara həvəslə verirmişlər. Hamı bilirdi ki, bu iki yaraşıqlı cavan sənətçi evlidir, süjetdən irəli gələn qucaqlaşıb öpüşmək səhnəsini oynamaq onlara çətin deyil.

Amma xoşbəxtliyin bu üzünü hər kəsə göstərmək lazım idimi? Yəqin ki o zaman sevənləri dəstə-dəstə olan yaraşıqlı Ağadadaşa, pərəstişkarları teatrın qapısını kəsdirən gözəl Gülxara kimsə öyüd verməmişdi ki, xoşbəxtlik dinməziyi sevir, aşkarlığı yox.

Elə həmin pərəstişkarlardan biri də Gülxarın ailəsini dağıdır. Gənc aktrisa qürurunu qırmayıb balası ilə birlikdə ər evini tərk edir.

… Pərəstişkarlar hər ikisindən əl çəkmir. Gülxar hər kəsə "yox" deyib qadınlıq qismətindəki yar eşqini səhnə məhəbbətinə, analıq, pedaqoqluq sevgisinə çevirir. Ağadadaş isə evlənir. Ta qədimdən kişilərin sevgi anlayışına yüklədikləri məzmun qadınlarınkından fərqli olub.

### "Sönməyən ulduzlar"ın işığı

Gənc aktrisa Gülxar Həsənovanın səsinin kəşfi barədə nə onun haqqında təkəmseyrək yazılarda, nə də videolentlərdə doğru-düzgün məlumat var. Yəqin günahın bir ucu mənə də çatır. Detallara varıb soruşmamışdım ki, Üzeyir bəy səsinizi harda eşitdi, operada necə işə başladınız? Oxumaq, xanəndəlik bir yana, muğamatı dərinliyinədək kimdən öyrəndiniz ki, özünüz də cavanlara öyrətməyə başladınız? Əslində, öyrənmək-öyrətmək istəyi onun canında vardı. Elə olmasaydı, oğlu Hamlet ilə təxminən eyni illərdə o zamankı Azərbaycan Dövlət Universitetində təhsil almağa həvəslənməzdi.

Gülxar xanımın Əslisindən, Leylisindən, Ərəbzəngisindən çox yazıblar, özünün də xeyli xatirəsi var bu haqda. Dramatik aktrisalıq stajı opera teatrında faciə obrazlarını yaradarkən də köməyinə çatıb. Hətta uzun illər onun nə vaxtsa dramatik teatrda rollar oynadığı da yaddan çıxıb. Odur ki, ilk nümayişindən böyük tamaşaçı kütləsi toplayan, bu gün də sevə-sevə baxılan "Yollar görüşəndə" (1979) məzəli teletamaşasında Hökumə xanım rolunda Gülxar xanımı görəndə təəccüblənənlər də oldu. Düzdür, 1976-cı ildə Həsən Seyidbəyli "Xoşbəxtlik qayğıları" filmində elçilik səhnəsində Gülxar xanımın xoş təbəssümlü simasını, sözsüz də olsa, ekrana gətirmişdi. Amma bir dinməz epizod diqqətdən qaçsa da, ömrünü balalarına həsr etmiş, övladlarını yersiz ittihamlardan qorumağı bacaran Hökumə xanım obrazı artıq xanəndəlik karyerasının qürubuna yaxınlaşan Gülxar xanımı yenidən aktrisa kimi tanıtdırdı. Ramiz Həsənoğlunun seçimi yerinə düşübmüş. Sonrakı illərdə Gülxar xanım bir neçə filmə çəkildi, kiçik də olsa, maraqlı rollar oynadı.

…Ötən əsrin doxsanıncı illərində cəmiyyətin ab-havası sənət aləmində çaşqınlıq, durğunluq yaratmışdı. Nəinki yaşlıların, hətta cavanların da özlərini sənətdə tapmaq, təsdiqləmək imkanının azaldığı dönəmdə çox fəal çalışan Azərbaycan Mədəniyyət Fondunda "Sönməyən ulduzlar" assosiasiyası və teatr truppası yaradıldı. Pensiyaya çıxmış, doğma kollektivdə hələ tükənməmiş potensialına meydan tapmayan aktyorlar, vokalçılar bura yığışmışdılar. Gülxar xanım da burda idi. Onun "Vaqif"də oynadığı aradüzəldən, evyıxan Yengəsini opera səhnəsində yox, assosiasiyanın eyniadlı dram tamaşasında gördüm. Elə o an da düşündüm ki, Gülxar xanımın dramı musiqiyə dəyişməsi ilə opera səhnəmiz Gənc Tamaşaçılar Teatrının itirdiyindən çox qazanıbmış.

### Hamletsiz "olum, ya ölüm" dilemması

Gülxar xanımın yeganə övladı, sonralar həm dramatik, həm də komik rolların öhdəsindən məharətlə gələcək görkəmli aktyor Hamlet Qurbanovla arasında yaş fərqi böyük deyildi. Cəmi 20 yaş. Hamlet körpə olanda isə gözəl Gülxar müharibəyə getmiş üç qardaşını bir-birinin ardınca itirir. Beləcə, bacı məhəbbətini də analıq sevgisinin gözünə qatır.

Bəlkə də gərək deyilmiş övladı bu qədər sevmək, onun qayğıları ilə ziyadə ilgilənmək? Eh, indiyədək hər dürlü məhəbbətin aşırı, ya da yetərsiz olduğunu ölçən cihazmı icad edildi, ölçü vahidini tapıldı?.. Yox… Və bütün hislərin izharı elə fərdi olaraq qalır. Görənlər bilir ki, Hamlet Qurbanovun da anasına bəslədiyi məhəbbət, bağlılıq da heç az deyildi. Onların ana-bala münasibətini hər ikisinin sənət sevgisi də qatılaşdırmışdı.

Demə, qismətində təkcə oğlunun sənət uğurlarına sevinmək yoxmuş…

Balasının gözünün qarşısında şam kimi əridiyini görmək, onun çarəsiz xəstəliyi qarşısında təbabətin acizliyini qəbul etmək də qismətdənmiş. 1995-ci ildə Hamlet Qurbanov 57 yaşında amansız xəstəlik üzündən dünyasını dəyişdi. Hamletdən sonra Gülxar xanım on il yaşadı. Əgər buna yaşamaq demək olardısa… Daha "Sönməyən ulduzlar"a da az gəlirdi. Gələndə də cavanlığını yada salıb nə oxuyurdu, nə də tamaşalara qoşulurdu. Xəstəlik, oğul itkisinin xiffəti onu içindən yeyirdi. Həyatda uzaq qohumuna görə yaşadığı haqsızlıq, rəfiqə xəyanəti, sevginin xatirəsi ilə yaşamaq, təkbaşına övlad böyütmək hünəri onun möhkəm xarakterini bir az da codlaşdırmışdı deyə, itirdiklərinin acısını yaşamağa özündə təpər tapırdı. Amma haracan? Ən əziz adamını – yeganə balasını itirmiş Gülxar xanımın hər açılan sabahı, hər qaralan axşamı hamletsayağı "olum, ya ölüm" dilemması içində keçirdi.

Olsun ki, nisgil içində yola saldığı bir-birinə oxşayan boz günlərin birində Gülxar xanım cavanlığında öz-özünə verdiyi hökmün peşmanlığını çəkirdi.

* * *

…Gülxar xanımın bir şəkli var. İyirmi il əvvəl, oğlu Hamlet Qurbanovun 60 illik yubileyində çəkilib. Teatr Xadimləri İttifaqının konfrans zalında oğlunun fotolarının sıralandığı divarın qarşısında pianoya söykənib, gözləri yol çəkir. Həmin tədbirdə iştirak etmiş, yazı da yazmışdım. Amma tədbir başa çatandan sonra Gülxar xanımın ağır-ağır başını yırğalayıb "ay Hamlet, ay Hamlet" deyərkən artıq şöləsi azalmış mavi gözlərinin içindəki xiffətdən başqa yadımda heç nə qalmayıb.

* * *

Bu gün, dekabrın 7-də Azərbaycanın xalq artisti, görkəmli xanəndə-pedaqoq, opera müğənnisi Gülxar xanımın 100 illiyi doğma Şəmkirdə qeyd edilir. Ayın 10-da isə ölkə Prezidentinin sərəncamı ilə dövlət səviyyəsində qeyd olunan 100 illik yubiley gecəsi bir zamanlar onun ifasına alqışların qopduğu filarmoniyada keçiriləcək.

Ruhun şad olsun, Gülxar xanım!

**Gülcahan MİRMƏMMƏD**

---

# Nəsrimizə "General" bəxş etmiş ədib

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olan müəlliflərdən biri də Xalq yazıçısı, Dövlət mükafatı laureatı Hüseyn Abbaszadədir. Yazıçının dövrün bədii mənzərəsini canlandıran və insan mənəviyyatını təsvir edən hekayələri, povest və romanları oxucular tərəfindən maraqla qarşılanıb.

Hüseyn Abbas oğlu Abbaszadə 22 noyabr 1922-ci ildə Bakıda dünyaya göz açıb. Gənclik illəri odlu-alovlu illərə təsadüf edib. Böyük Vətən müharibəsində (1941-45) Şimali Qafqazda, Leninqrad və Ukrayna cəbhələrində döyüşlərin iştirakçısı olur. Qanlı döyüşlərin birində ağır yaralanır və ordudan tərxis edilir. Sağlamlığı bərpa olandan sonra Mirzağa Əliyev adına Teatr İnstitutuna qəbul olunur. Teatrşünaslıq ixtisasına yiyələnsə də, həyatını mətbuata həsr edir. Uzun illər "Pioner" və "Göyərçin" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor vəzifələrində çalışır.

Yaradıcılığa şeirlə başlayan H.Abbaszadənin ilk bədii nümunələri müharibə illərində mətbuatda dərc olunur. Sonralar "Sınaq illəri", "Yaşıl küçə", "Silah yoldaşları", "Yasəmən", "Sən nə yaxşı nənəsən", "Yun corab" və s. kitabları işıq üzü görür. Bu kitablarda toplanan şeirlər və kiçik hekayələr əsasən uşaqlara həsr olunub.

H.Abbaszadə ədəbiyyatımızda daha çox nəsr əsərləri ilə tanınır. 60-cı illərin əvvəllərində onun "Azərbaycan" jurnalında "General" romanı dərc edilir və müəllifə şöhrət qazandırır. Müharibənin od-alovundan keçən yazıçı əsərdə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun keçdiyi döyüş yollarını qələmə alır. Roman müharibə illərində Azərbaycan oğullarının qəhrəmanlığını bütün dolğunluğu ilə əks etdirən parlaq nəsr nümunəsidir.



Hüseyn Abbaszadə (sağdan birinci) həmkarları ilə

Sonralar yazıçı "Qaradağ əhvalatı", "Qapını döyürlər", "Mansur", "Şokolad paylayan qız", "Hardansınız, müsyö Abel?", "Uzaqdan gələn qonaq" povestlərini qələmə alır. Bu əsərlərdə vətənpərvərlik hisləri daha qabarıqdır. Yazıçının qəhrəmanları tale sarıdan birbirinə oxşardır. Buna yazıçının "Burulğanlar" romanında Həmid, "Mansur" povestində Mansur, "Evə kölgə düşür"də Cövdət misal göstərmək olar. Cövdət elmi tədqiqat institutunda işləyir. Ağlına, savadına görə bir çoxlarından fərqlənir. Ancaq zamanın nəbzini tuta bilmir, mənəvi əzablara düçar olur. Onu da qeyd edək ki, H.Abbaszadə "Burulğanlar" romanına görə 1984-cü ildə Dövlət mükafatına layiq görülüb.

"Şokolad paylayan qız" povestində göstərilir ki, almanlar müharibədə məğlub olub. Berlin şəhərində döyüşlər başa çatıb. Ancaq əsərin qəhrəmanı Behruzun döyüşdüyü hissə hələ Berlindədir. Döyüş olmasa da, topların gurultusu, bombaların dəhşətli partlayışları qulaqlarda eşidilir. Yazıçı bir cəbhədə döyüşən, mənən bir-birinə yaxın olan ayrı-ayrı xalqların nümayəndələrini qarşılaşdırır, düşmənə nifrətini ümumiləşdirir.

Yazıçının "Əlibalanın ağır səfəri", "Qayıdanlardan biri" romanları da mövzu-mündəricəsi ilə maraqlıdır. Ədib həm də maraqlı hekayələr müəllifi kimi tanınıb. "Zəmanət", "Xeybər əminin gülləri", "Ana və oğul", "Axşam şöbəsinin tələbəsi", "Çəmbərəkənd əhvalatı" və s. adlı hekayələri güclü bədii ümumiləşdirmə ilə seçilir. Əsərlərdə milli dəyərlər uca tutulur, qəhrəmanların mənəvi-psixoloji aləminin təqdimində milli keyfiyyətlər önə çəkilir.

H.Abbaszadə qələminin məhsulu olan memuarlarda və publisistik məqalələrdə XX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli simalarının işıqlı obrazları öz əksini tapıb. Onun Azərbaycan Yazıçılar İttifaqının katibi kimi uzun illər müasir ədəbi prosesin təşkili sahəsində təqdirəlayiq əməyi olub.

Görkəmli yazıçı 1979-cu ildə Əməkdar incəsənət xadimi, 1991-ci ildə Xalq yazıçısı fəxri adlarına, 1997-ci ildə "Şöhrət" ordeninə layiq görülüb, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub. 12 dekabr 2007-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

---




# "Rusiyanın dahi adları" arasında bir azərbaycanlı

## Surqut şəhərinin aeroportu Fərman Salmanovun adını daşıyacaq

Rusiya Federasiyasının Tümen vilayətinin Xantı-Mansiysk muxtar dairəsinin ən böyük beynəlxalq hava limanı – Surqut aeroportu əfsanəvi azərbaycanlı geoloq Fərman Salmanovun adını daşıyacaq. Bu, "Rusiyanın dahi adları" layihəsi çərçivəsində ölkənin 47 aeroportuna görkəmli şəxslərin adlarının verilməsinə dair keçirilən səsvermənin nəticələrinə əsasən məlum olub.

Rusiya Federasiyasının İctimai Palatası, Rusiyanın Dilçilik, Coğrafiya, Tarix və Hərbi-Tarix cəmiyyətlərinin birgə layihəsi üzrə reallaşan, "Bir səs – bir aeroport – bir ad" prinsipi üzrə keçirilən səsvermədə beş milyona yaxın rusiyalı iştirak edib.

Səsvermə ictimai kampaniyanın saytında, sosial şəbəkələrdə, həmçinin "qaynar xətt" və hava limanlarında, dəmir yolu vağzallarında könüllülər tərəfindən anket-sorğu vasitəsilə aparılıb. Nəticələr dekabrın 4-də elan olunub.

Xantı-Mansiysk muxtar dairəsinin iki aeroportu – Nijnevartovsk və Surqut hava limanları həmyerlimizin adını daşımaq uğrunda yarışırdı. Səsvermənin nəticələrinə görə, ən çox səsi Surqut aeroportu toplayıb. Nijnevartovsk hava limanı üçün ad seçimi layihənin ikinci turunda davam edəcək.

Sibir neftini kəşf etmiş geoloq Fərman Salmanov 1931-ci il iyulun 28-də Şəmkir rayonunun Morul kəndində anadan olub. O, Azərbaycan Dövlət Neft Akademiyasını bitirdikdən sonra Rusiyanın Xantı-Mansiysk muxtar dairəsinin Surqut rayonunda neft-qaz yataqlarının kəşfiyyatı ilə məşğul olub. Burada ilk dəfə Yuqra yatağını kəşf edib.

Fərman Salmanov xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına, "Lenin" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə, Rusiya Federasiyasının Əməkdar geoloqu və digər fəxri adlara layiq görülüb. O, Surqut şəhərinin və ABŞ-ın Texas ştatının fəxri vətəndaşı idi. 2007-ci ildə vəfat edib.

"Rusiyanın dahi adları" layihəsi üzrə səsvermənin nəticələrinə əsasən, Moskvanın Şeremetyevo aeroportu böyük rus şairi Aleksandr Puşkinin, Domodedovo hava limanı isə məşhur alim Mixail Lomonosovun adını daşıyacaq. Digər şəhərlərdəki bir sıra hava limanları üzrə də birinciliyi tanınmış ədəbiyyat, mədəniyyət xadimləri qazanıb: Krasnoyarsk – Dmitri Xvorostovski (bu şəhərdə doğulmuş məşhur opera müğənnisi 2017-ci ildə vəfat edib); Yujno-Saxalinsk – Anton Çexov; Kazan – Qabdulla Tukay (tatar şairi); Ufa – Mustay Kərim (başqırd şairi və yazıçısı); Maqadan – Vladimir Visotski; Mineralnıye Vodı – Mixail Lermontov; Anadır – Yuri Rıtxeu (çukot yazıçısı).

Qeyd edək ki, dünyada 200-dən çox aeroport, o cümlədən sərnişin axını üzrə "top 20"yə daxil olan ən böyük hava limanları (Paris – Şarl de Qoll, Nyu-York – Con Kennedi, Roma – Leonardo da Vinçi, Dehli – İndira Qandi, İstanbul – Atatürk və s.) bir çoxu məşhur adamların adını daşıyır.

"Rusiyanın dahi adları" səsvermənin nəticələri üzrə hava limanlarına yeni adların verilməsi Prezident Vladimir Putinin müvafiq qərarından sonra rəsmiləşəcək.

**V.ORXAN**

# "Bremen musiqiçiləri" Gənc Tamaşaçılar Teatrının səhnəsində

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Y.Etin və V.Livanovun "Bremen musiqiçiləri" pyesi əsasında səhnələşdirilən eyniadlı tamaşanın premyerası olub.

Teatrın mətbuat xidmətindən bildirilib ki, quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov olan tamaşanın səhnə tərtibatı Telman Şıxıyevə, musiqi tərtibatı isə İradə Muradovaya məxsusdur. Rolları aktyorlar Anar Seyfullayev, Aygün Fətullayeva, Elşən Şıxəliyev, Bəhram Həsənov, Xaliq Bəkirov, Eyvaz İbrahimov və başqaları ifa ediblər.

"Bremen musiqiçiləri" iki gəncin saf sevgisindən bəhs edən həzin bir nağıldır. Uşaqlar üçün



nəzərdə tutulmuş tamaşa böyüklərin də marağına səbəb olub. Tamaşanın yaradıcı heyəti balacalarda gözəl hislər tərbiyə etməyə, onlarda pozitiv ovqat yaratmağa çalışıb. Tamaşanın dinamikası, aktyor oyunu və xoşbəxt sonluq hər kəsdə xoş hislər oyadıb.

90 illik yubileyini qeyd edən teatr yeni mövsümdə M.Servantesin romanı əsasında səhnələşdirilən "Don Kixot" (quruluşçu rejissor Bəhram Osmanov) tamaşasından sonra "Bremen musiqiçiləri" ilə ikinci premyerasını təqdim edib.

# "Musiqi ilə sıx bağlı olan ailədə böyümüşəm"

## Opera müğənnisi Dinara Əliyeva Latviya qəzetinə müsahibə verib

Dekabrın 7-də Latviya Dövlət Opera Teatrında nümayiş olunacaq Cakomo Puççininin "Qaranquş" operasında baş rollardan birini azərbaycanlı soprano, Xalq artisti Dinara Əliyeva ifa edəcək.

Konsert öncəsi Latviyanın "Kultūrzīmēs" ("Mədəniyyət işarələri") qəzetində həmvətənimizlə müsahibə dərc olunub. Dinara Əliyeva ilə müsahibədə onu "Səsi tanrının hədiyyəsi olan müğənni" kimi təqdim ediblər. Yazıda azərbaycanlı sopranonun opera səhnələrindəki uğurları barədə geniş məlumat yer alıb.

Müsahibədən bəzi məqamlar:

**- Latviya Dövlət Operasında siz "Traviata", "Yevgeni Onegin", "Trubadur" kimi operalarda aparıcı partiyaları ifa etmisiniz. Riqa səhnəsindən ən yaddaqalan məqamlar hansılardır?**

- Riqada mən Motsartın "Don Juan"



SANDRA VENSKO: "Kartotēka būs pieejama, un tautai būs iespēja piedot vai sodīt." VIEDOKLIS. 2

KULTŪRZĪMES

NUMURA SARUNA

Parīziešu kurtizāne no Baku

LASIET ŠONEDĒĻ:

operası ilə debüt etmişəm. O vaxt rejissor Andrey Jaqars məndən soruşdu: "Elviranın partiyasını bilirsənmi?" Cavab verdim ki, yox, amma öyrənəcəyəm! Bu rol mənimçün dönüş oldu, çünki Elviranı növbəti dəfə Motsartın vətəni Vyanada ifa etdim.

**- Həyatınızın hansı məqamında operaya gəlmək qərarı aldınız?**

- Mən musiqi ilə sıx bağlı olan ailədə böyümüşəm. Atam teatrda işləyirdi, onun mükəmməl musiqi duyumu vardı. Anam isə uşaq xorunda çalışırdı. Anamın valideynləri Dağıstanın tanınmış rəqqasları olub.

...Təəssüf ki, mən Azərbaycan dilində yaxşı danışa bilmirəm. Bu dil çox gözəl və axıcıdır. Bakı üçün çox darıxıram. Sonuncu dəfə doğma şəhərimdə 6 il əvvəl, Plasido Dominqo ilə birlikdə olmuşam. Azərbaycan bu gün sürətlə inkişaf edir, o hər gün dəyişir. Bakı gözəlliyi ilə Avropanın ən möhtəşəm şəhərlərindən belə geri qalmır.

## İrəvan teatrı bölgələrə gedir

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı qastrola hazırlaşır. Teatrdan bildirilib ki, kollektiv dekabrın 7-dən 19-dək şair-dramaturq İftixarın "Soyqırımı tarixinin dastanı" tamaşası ilə Quba, Sabirabad, Ağcabədi rayonunun laçınlı məcburi köçkünlərin məskunlaşdığı Taxtakörpü qəsəbəsində, İmişli və Samux rayonlarında qastrol səfərində olacaq.

Teatr dekabrın 12-də ümummilli lider Heydər Əliyevin anım günündə İftixarın "Qalx ayağa, Azərbaycan" tamaşasını Balakəndə təqdim edəcək.

# "Sevgilim Sumqayıt"

Sumqayıt Dövlət Dram Teatrı 2019-cu ilin ilk ayında yeni layihəyə start verəcək. Gələn il Sumqayıt şəhərinin yaranmasının 70 illiyidir.

Teatrın "Sevgilim Sumqayıt" adlı yeni layihəsi də şəhərin yubileyinə həsr olunacaq. Layihənin ideya müəllifi teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov, pyesin müəllifi Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Əli Əmirlidir. Tamaşaya Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verir.

"Sevgilim Sumqayıt" Sumqayıt şəhərinin yaranması, onun ilk sakinlərinin əmək fəaliyyəti, şəhərin dünəni, bu günü və sabahı haqqında təsirli süjet xətti ilə, müxtəlif xarakterli maraqlı obrazlarla zəngin səhnə əsəridir.



Sumqayıt sakini bir qadının həyatından bəhs edən tamaşada teatrın gənc və orta nəsil aktyorları rol alacaqlar.

"İnanırıq ki, Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş bu layihə teatrın kollektivindən şəhərimizin sakinlərinə layiqli yubiley hədiyyəsi olacaq", - deyə Mübariz Həmidov bildirib.

# "Azərbaycan ədəbiyyatı tarixi"nin birinci cildi çapdan çıxıb

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bir neçə ildir ki, oncildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin hazırlanmasına başlanılıb. İnstitutdan bildirilib ki, artıq çoxcildliyin birinci cildi çapdan çıxıb.

Nəşr tarixi-xronoloji aspektdə ilkin olan və yazılı ədəbiyyatın inkişafında əsas mənbə rolunu oynayan "Şifahi xalq ədəbiyyatı"na həsr edilib. Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" sərlövhəli təqdimatı ilə başlayan kitabda milli ədəbiyyatımızın mifoloji qaynaqları, zəngin şifahi xalq ədəbiyyatı örnəkləri, aşıq yaradıcılığı elmi-nəzəri oçerklər əsasında oxuculara çatdırılır.

Professor Məhərrəm Qasımlının şifahi xalq ədəbiyyatımızın ümumi mənzərəsini sistemli şəkildə canlandıran "Azərbaycan folkloru" oçerkindən başlayaraq, onun ayrı-ayrı janrları tanınmış alimlərin




araşdırmalarında xronoloji ardıcıllıqla verilib. Kitabda mifologiya (Arif Acaloğlu), arxaik folklor janrları, mərasim folkloru, əmək nəğmələri (Bəhlul Abdulla), qədim türk eposu (Nizami Cəfərov, Kamil Vəliyev), oğuznamələr (Əfzələddin Əsgər), "Kitabi-Dədə Qorqud" (Tofiq Hacıyev), xalq gülüşü, qaravəllilər (Muxtar İmanov), dastanlar (Məmmədhüseyn Təhmasib, Məhərrəm Qasımlı), bayatılar, qam-şaman kompleksi, ozan-qopuz ənənəsi, aşıq sənəti, aşıq mühitləri (Məhərrəm Qasımlı), "Koroğlu" eposu (Nizami Cəfərov, Məmməd Əliyev, İsrafil Abbaslı), lətifələr (Təhmasib Fərzəliyev, Muxtar İmanov), nağıllar, atalar sözü və məsələr, tapmacalar (Oruc Əliyev), əfsanələr, rəvayətlər, aşıq rəvayətləri (Aynur Xəlilova), xalq dramları, uşaq folkloru (Ramazan Qafarlı), meydan tamaşaları (Azad Nəbiyev) ilə bağlı dəyərli araşdırmalar təqdim olunub. Ustad aşıqlara ayrıca oçerklər həsr edilib. Həmçinin Azərbaycan folklorunun öyrənilməsi, toplanılması və nəşr edilməsi məsələləri, folklorşünaslığımızın inkişafında böyük xidmətləri olan alimlərin bu istiqamətdəki fəaliyyətləri tədqiqata cəlb olunub, folklorşünaslarımız haqqında yığcam məlumatlar verilib.

Hazırda oncildliyin "Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü"nü əhatə edən ikinci cildi çapa təqdim olunub.

# Tanınmış şair və publisistin yubileyi qeyd edilib

Dekabrın 5-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda tanınmış şair və publisist Əlirza Xələflinin 65 illik yubileyi qeyd edilib.

Tədbiri filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy açaraq yubilyarın həyat və yaradıcılığından bəhs edib, onu filosof şair, istedadlı nasir, kəsərli qələmə malik publisist kimi xarakterizə edib.

Bildirilib ki, Cəbrayıl rayonunun Xələfli kəndində dünyaya göz açan və məcburi köçkünlük həyatı yaşayan Əlirza Xələfli əsərlərini qəlbində Qarabağ ağrısı ilə qələmə alır.



Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi, Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, akademik Nizami Cəfərov, dilçi alim, professor Qəzənfər Kazımov yubilyarın poeziyası, nəsr əsərləri, publisistikası barədə fikirlərini bölüşüblər. Filologiya elmləri doktoru, professor İslam Qəribli "Sənətkarın həyat və yaradıcılığı fraqmentləri - son beş il" mövzusunda məruzə ilə çıxış edib. Diqqətə çatdırılıb ki, Ə.Xələflinin indiyədək 40-dan çox kitabı işıq üzü görüb.

Professorlar Təyyar Salamoğlu, Himalay Qasımov, Qəzənfər Paşayev, Mahmud Allahmanlı, Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev və başqaları çıxış edərək yubilyara təbriklərini çatdırıblar.

Sonda tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirən Ə.Xələfli yeni şeirlərini oxuyub.

## TƏQVİM 7-10 dekabr

### Azərbaycan

**7 dekabr 1919** – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binasında (indiki AMEA-nın Əlyazmalar İnstitutu) İstiqlal Muzeyi açılıb.

**8 dekabr 1914** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (1914-2001) Naxçıvanda anadan olub.
**8 dekabr 1930** – Bəstəkar, Xalq artisti, professor Tofiq Əhməd-xan oğlu Bakıxanov anadan olub.
**8 dekabr 1942** – Xalq artisti Elxan Ağahüseyn oğlu Ağahüseynov (1942 - 2.8.2009) Bakıda doğulub.
**8 dekabr 1957** – Bəstəkar, Əməkdar incəsənət xadimi Sərdar Fərəculla oğlu Fərəcov anadan olub.

**9 dekabr 1918** – Yazıçı, ədəbiyyatşünas Cəlal Məmmədov (1918-1983) anadan olub.
**9 dekabr 1973** – Görkəmli aktyor Lütfəli Abdullayev (22.3.1914 - 1973) vəfat edib.

**10 dekabr 1918** – Tanınmış opera müğənnisi, Xalq artisti Gülxar İbrahim qızı Həsənova (1918-2005) Şəmkir rayonunda anadan olub.
**10 dekabr 1924** – Xalq şairi, dramaturq, SSRİ Dövlət mükafatı laureatı Nəbi Xəzri (Nəbi Ələkbər oğlu Babayev; 1924 - 15.1.2007) Bakının Xırdalan kəndində doğulub.
**10 dekabr 1935** – Xalq rəssamı Fikrət Bağır oğlu Bağırov (1935-1996) anadan olub.

### Dünya

**7 dekabr 1598** – İtalyan memarı və heykəltəraşı Covanni Lorenso Bernini (Giovanni Lorenzo Bernini; 1598 - 1680) anadan olub.
**7 dekabr 1889** – Fransız filosofu, ekzistensializmin tanınmış nümayəndəsi Qabriel-Onore Marsel (Gabriel Honore Marcel, 1889 - 8.10.1973) anadan olub.

**8 dekabr 1832** – Norveç yazıçısı, şair, dramaturq və publisist, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1903) Byornsterne Martinius Byornson (1832-1910) anadan olub.
**8 dekabr 1865** – Fin bəstəkarı Yan Sibelius (Johan Christian Julius Sibelius, 1865 - 20.9.1957) anadan olub.
**8 dekabr 1934** – Rus aktrisası, SSRİ Xalq artisti Alisa Brunovna Freyndlix anadan olub.

**9 dekabr 1717** – Alman sənətşünası, antik incəsənət tədqiqatçısı Yohann İoaxim Vinkelman (Johann Joachim Winckelmann, 1717-1768) anadan olub.

**10 dekabr 1821** – Rus şairi, yazıçı və publisist Nikolay Alekseyeviç Nekrasov (1821 - 8.1.1878) anadan olub.
**10 dekabr 1890** – Görkəmli başqırd şərqşünası və türkoloq, ictimai xadim Əhməd Zəki Validi Toğan (1890 - 28.7.1970) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 8-11 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 8 dekabr | C.Verdi - "Trubadur" opera | 19.00 |
| 9 dekabr | P.Çaykovski - "Romeo və Cülyetta";<br>N.Rimski-Korsakov - "Şəhrizad" (baletlər) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 8-9 dekabr | Ə.Əmirli - "Ah, bu uzun sevda yolu" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 8 dekabr | O.Zülfüqarov, R.Heydər - "Dəcəl çəpişlər" | 12.00 |
| | İ.Sadıqov - "Molla Nəsrəddinin beş arvadı" | 19.00 |
| 9 dekabr | V.Ulanovski, V.Orlov - "Qızıl cücə" (rus dilində) | 12.00 |
| | Elçin - "Baladadaşın toy hamamı" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 8 dekabr | A.Puşkin - "Çar Saltan, knyaz Qvidon və şahzadə qu quşu haqqında nağıl" | 12.00 |
| | C.Ostin – "Qürur və qərəz" | 19.00 |
| 9 dekabr | İ.Berqman – "Payız sonatası" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 8 dekabr | B.Marvin - "Yatmış gözəl" | 12.00<br>14.00 |
| | C.Cabbarlı - "Aydın" | 19.00 |
| 9 dekabr | A.Şaiq - "Tıq-tıq xanım" | 12.00<br>14.00 |
| | M.Füzuli - "Leyli və Məcnun" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 8 dekabr | Rus xalq nağılı - "Qoğal" | 12.00<br>14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |
| 9 dekabr | S.Marşak - "Pişiyin evi" | 12.00<br>14.00 |
| | C.Rodari - "Çipollino" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 8 dekabr | S.Haqverdiyeva - "Metamorfoza" | 19.00 |
| 9 dekabr | Mərcan Dədə - "Rindü-şeyda" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 8 dekabr | S.Hacıyeva - "Dejavü" | 18.00 |
| 9 dekabr | B.Xanızadə - "Fəlakət və İnsan" | 14.00 |
| | B.Əhmədli - "Ağbığlılar" | 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 9 dekabr | Rusiyanın tanınmış estrada müğənnisi Stas Mixaylovun konserti | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 10 dekabr | Xalq artisti Gülxar Həsənovanın 100 illiyinə həsr olunmuş yubiley gecəsi<br>"Muğam" instrumental ansamblı<br>(bədii rəhbər Sahib Paşazadə) | 19.00 |
| 11 dekabr | Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir<br>Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri<br>(bədii rəhbər Rauf Abdullayev) | 19.00 |

**Kamera və Orqan Musiqisi Zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 8 dekabr | Xalq artisti, bəstəkar Tofiq Bakıxanovun yaradıcılığının 60 illiyinə həsr olunmuş konsert<br>Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 10 dekabr | Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir | 19.00 |

# Ankarada Azərbaycan muğamı və Mövləvi səma rəqsləri gecəsi

Azərbaycan muğam sənətinin və Türkiyənin Mövləvi səma rəqslərinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmasının 10 illiyi dekabrın 4-də Ankarada möhtəşəm tədbirlə qeyd olundu.

Sənət axşamı Azərbaycanın Mədəniyyət Nazirliyi, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, ölkəmizin Ankaradakı səfirliyi, Türkiyənin UNESCO üzrə Milli Komissiyası və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşdi.

Mərasimdə bədii hissədən öncə çıxışlar oldu.

Türk xalqlarının qədim mədəni sərvətini tanıtmaq və yaşatmaq üçün bir araya gəldiklərini vurğulayan TÜRKSOY-un baş katibi Düsen Kaseinov dedi: “Bizlər ata-babalarımızdan qalan mirası ən dəyərli xəzinəmiz olaraq görməkdəyik. Bu mirası qorumaq və zənginləşdirmək üçün birlikdə çalışırıq. Bugünkü tədbirimiz bunun ən gözəl nümunəsidir”.





Azərbaycanın mədəni zənginliklərindən muğamın ümumilikdə Türk dünyasının musiqi sənətindəki önəmini diqqətə çatdıran ölkəmizin Ankara böyükelçisi Xəzər İbrahim tədbirin təşkilində əməyi keçən TÜRKSOY və Türkiyənin UNESCO üzrə Milli Komissiyasına xüsusi təşəkkürlərini bildirdi.

Türkiyənin UNESCO üzrə Milli Komissiyasının sədr müavini Deniz Çakar da tədbirin əhəmiyyətini qeyd etdi, ötən 10 ildə qardaş xalqlarımızın mədəni irsinin bir çox nümunələrinin UNESCO-nun müvafiq siyahılarına salındığını dedi.

Çıxışlardan sonra konsertin birinci hissəsində seyrçilər Türkiyənin Beynəlxalq Mövlana Cəmiyyəti (Uluslararası Mevlana Vakfı) Səma rəqsləri qrupunun kompozisiya-proqramına tamaşa etdi.

Tədbirin təşkilatçıları tərəfindən qrupa xatirə hədiyyəsi təqdim edildikdən sonra Azərbaycanın Xalq artisti, xanəndə Mənsum İbrahimovun rəhbərlik etdiyi “Qarabağ” muğam qrupu səhnəyə çıxdı. Xanəndəni əməkdar artistlər Elçin Həşimov (tar), Elnur Əhmədov (kamança) və nağarada Kamran Kərimov müşayiət edirdi. Gecədə səslənən Azərbaycan xalq və bəstəkar mahnıları, sonda isə “Qarabağ şikəstəsi” tamaşaçıların hərarətli alqışlarına səbəb oldu.

“Qarabağ” muğam qrupuna səfir Xəzər İbrahim, TÜRKSOY-un baş katibi Düsen Kaseinov və Türkiyənin UNESCO üzrə Milli Komissiyasının sədr müavini Deniz Çakar tərəfindən xatirə plaketləri təqdim edildi.

Tədbirdən sonra Ankarada yaşayan və çalışan azərbaycanlılar Bakıdan gələn sənətkar həmyerlilərilə xatirə şəkilləri çəkdirdilər.

**Mehparə SULTANOVA**
**Ankara**

# Tarın səsi və dolmanın dadı...

## UNESCO siyahısındakı iki mədəni irs nümunəmiz Buenos-Ayresdə böyük maraq doğurub

Ölkəmizlə Argentina arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə dekabrın 5-də paytaxt Buenos-Ayresdə, Argentinanın Xarici İşlər və Etiqad Nazirliyinin nəzdindəki Manuel Belqrano konsert salonunda rəsmi mərasim keçirilib.

Ölkəmizin Argentinadakı səfirliyindən bildiriblər ki, mərasimdə çıxış edən Argentinanın xarici siyasət üzrə dövlət katibinin müavini Qustavo Zlauvinen diplomatik əlaqələrin 25 illiyi münasibətilə təbriklərini çatdırıb, iki dövlət arasında siyasi münasibətlərin və dialoqun inkişaf etdiyini deyib.



Azərbaycan ilə Argentina arasındakı mədəni əlaqələrdən danışan Q.Zlauvinen konsert proqramında səslənəcək tarın Azərbaycanın mədəni mənsubiyyətinin bir hissəsi, tədbirin sonunda təqdimatı keçiriləcək dolmanın isə Azərbaycan mətbəxinin məşhur təamı olduğunu bildirib.

Daha sonra çıxış edən səfir Rəşad Aslanov iki ölkə arasında diplomatik münasibətlər haqqında sənədin 1993-cü il noyabrın 8-də imzalandığını bildirib. Diplomat 2010-cu ildə Azərbaycanın Cənubi Amerika regionunda ilk səfirliyinin Argentinada təsis edilməsindən və 2013-cü ildə bu ölkənin Azərbaycanda səfirliyinin fəaliyyətə başlamasından sonra nazirlərin, parlament nümayəndələrinin və iş adamlarının yüksək səviyyəli səfərlərinin həyata keçirildiyini və ikitərəfli razılaşmaların imzalandığını deyib.

R.Aslanov tədbir iştirakçılarını UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycan tarında hər iki ölkənin musiqilərini dinləməyə, milli mətbəximizin nümunəsi olan dolmanın dadına baxmağa dəvət edib.

Argentinanın məşhur pianoçusu Roberto Siri və Azərbaycanın Əməkdar artisti, tarzən Sahib Paşazadənin birgə ifasında təqdim edilən musiqi nömrələri böyük maraqla qarşılanıb.

# Minskdə “Mənim Azərbaycanım” adlı sərgi açılıb

Ölkəmizin Belarusdakı səfirliyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 və iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş “Mənim Azərbaycanım” adlı sərgi təşkil edib. Belarus Milli İncəsənət Muzeyində təşkil olunan sərgidə Azərbaycanın milli geyimləri və musiqi alətləri, xalça nümunələri və milli mətbəximizə aid qablar nümayiş etdirilib.

Tədbirdə Minskdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, Belarus rəsmiləri, deputatlar, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Sərginin açılışında Belarus Milli İncəsənət Muzeyinin direktoru Vladimir Prokoptsov, bu ölkənin mədəniyyət nazirinin birinci müavini Natalya Korçevskaya, xarici işlər nazirinin birinci müavini Andrey Yevdaçenko, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov, Belarus Rəssamlar İttifaqının sədri Rıqor Sitnitsa, Yazıçılar İttifaqının sədri Nikolay Çerqinets və azərbaycanlı rəssam Nailə Qəndilova çıxış ediblər.

Səfir Lətif Qəndilov Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı qonaqlara ətraflı məlumat verib. Həmçinin diqqətə çatdırılıb ki, bu il Azərbaycan ilə Belarus arasında diplomatik münasibətlərin 25 illiyi qeyd olunur. Səfir siyasi-iqtisadi münasibətləri yüksək səviyyədə olan Azərbaycan ilə Belarus arasında mədəniyyət sahəsində əlaqələrin də genişləndirilməsinin vacibliyini vurğulayıb.



Belarus xarici işlər nazirinin birinci müavini Andrey Yevdaçenko iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi ilə əlaqədar səfirlik tərəfindən çoxsaylı tədbirlərin keçirilməsinin təqdirəlayiq olduğunu vurğulayıb, bu sərginin də xalqlarımız arasında münasibətlərin daha da yaxınlaşmasına xidmət edəcəyinə əminliyini bildirib.

Tədbirdə iki ölkə arasında münasibətlərin inkişafında göstərdikləri xidmətə görə “Belta” İnformasiya Agentliyinin rəhbəri İrina Akuloviçə və Belarus Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Universitetinin rəisi İvan Polevoda diplomatik münasibətlərin 25 illiyi münasibətilə səfirlik tərəfindən hazırlanmış gümüş xatirə nişanı və kitab təqdim edilib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar. Simfonik kvartetin ifasında Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

# Sofiyada xeyriyyə bazarında milli mətbəx və məhsullarımız nümayiş olunub



Azərbaycanın Bolqarıstandakı səfirliyi Sofiyada Beynəlxalq Qadınlar Klubu tərəfindən təşkil olunan ənənəvi xeyriyyə bazarında (Charity Bazaar) ölkəmizi təmsil edib.

Səfirlik Azərbaycanın Mədəniyyət və İqtisadiyyat nazirlikləri, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Şəki və Gəncə Şəhər və Göyçay Rayon İcra hakimiyyətləri və “AZNAR” şirkətinin dəstəyi ilə milli mətbəximizin ləziz nümunələrini, xalqımızın mədəniyyəti, tarixi irsi, milli geyimlərini və ölkəmizin turizm potensialını nümayiş etdirib.

Ziyarətçilərə təqdim olunmuş plov, dolma və lavaş, dovğa, müxtəlif kabab nümunələri, kükü, milli şirniyyatlarımızdan şəkərbura, paxlava, Şəki halvası, digər təamlar böyük marağa səbəb olub. Bazarda, həmçinin Azərbaycan istehsalı olan şərablar, müxtəlif növ şirə və kompotlar, narşərab, mürəbbə və çeşidli konservlər ziyarətçilər tərəfindən həvəslə alınıb.

Azərbaycan stendində milli çay dəsgahı təşkil olunub, çay süfrəsinin hazırlanmasının vacib elementləri barədə iştirakçılara məlumat verilib. Ölkəmizlə bağlı foto-açıqcalar, suvenirlər, sənətkarlıq nümunələri, Bakı və digər şəhərlərin görməli yerlərinin təsvirlərinin əks olunduğu müxtəlif fincan və boşqablar, tikmə nümunələri, habelə UNESCO-nun siyahısına daxil edilmiş kəlağayılar tədbiri izləməyə gələn şəhər sakinləri və xarici qonaqlar tərəfindən rəğbətlə qarşılanıb.

Azərbaycanlı uşaqların ifasında Azərbaycan və bolqar dillərində səslənən Rəşid Behbudovun “Bakı” mahnısı alqışlarla qarşılanıb.

Tədbir çərçivəsində səfir Nərgiz Qurbanova Bolqarıstan Milli Televiziyası və Radiosuna müsahibə verib. Diplomat Azərbaycan xalqının tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr etdiyini söyləyib, ölkəmizin zəngin mədəni irsi, turizm potensialı barədə danışıb.

Qeyd edək ki, bu il 24-cü dəfə keçirilən xeyriyyə bazarında 60-dan artıq ölkə təmsil olunub.

# Karel Qott 80 illiyi üçün qızıl sikkə zərb etdirib

Çexiya estradasının əfsanəsi, müğənni Karel Qott gələn il 80 illik yubileyini qeyd etməyə hazırlaşır. O, əlamətdar hadisə şərəfinə Yablonets-Nisa şəhərinin zərbxanasında şəxsən qızıl sikkə zərb etdirib.

Medalın layihəsini 27 yaşlı çuvaş rəssamı Azamat Baltayev hazırlayıb. Sikkə 2019-cu ilin iyununda satışa çıxarılacaq.

K.Qott üzərində öz təsviri olan birinci qızıl medalın hazırlanması üçün beş il əvvəl də bu zərbxanada olub. Hər birinin çəkisi 15,56 qram olan 500 qızıl və hər biri ondan iki dəfə ağır olan 100 gümüş sikkə hazırlanacaq. Üç qızıl medaldan ibarət seriya kolleksiyaçılara təxminən 100 min krona başa gələcək.



# Dünyanın ikinci dili

İspan dili dünyada onu özləri üçün ana dili hesab edən daşıyıcıların sayına görə Çin dilindən sonra ikinci yeri, habelə daşıyıcıların ümumi sayına görə (ana dili + məhdud istifadə dili + xarici dil) ingilis dilindən sonra ikinci yeri tutur.

Amma gələcəkdə ispan dilinin inkişaf sürətinin zəifləməsi, hətta tənəzzülü baş verə bilər.

Bu barədə “Dünyada ispan dili illiyi” adlı nəşrdə bildirilir. Bu proqnoz ispandilli ölkələrin sakinlərinin sayının azalması ilə bağlıdır. Servantes İnstitutunun şəbəkəsində dərc edilən illik nəşrin məlumatına görə 2017-ci ildə bu dilin daşıyıcılarının sayı 572,6 milyon olub. Məlumata görə, hazırda təkcə ABŞ-da ispan dilini xarici dil kimi öyrənən sakinlərin sayı təqribən 22 milyon nəfərdir. Böyük Britaniyada da ispan dilinə tələbat var, orada bu dil çox perspektivli sayılır.

Gözlənildiyinə görə, 2050-ci ildə ispanca danışanların ümumi faiz nisbəti




7,7 faizə çatacaq, yəni 756 milyon nəfər bu və ya digər səviyyədə bu dildə danışacaq. Həmin tarixdən etibarən ispan dili daşıyıcılarının sayı tədricən azalacaq və 2100-cü ildə bu azalma statistik baxımdan nəzərəçarpacaq həddə çatacaq.

Ölkələrin coğrafi mövqeyi və iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla iqtisadi baxımdan ispan dili dördüncü yerdədir. Bu əlamətlərə görə birinci yeri ən yaxın “rəqiblərindən” böyük fərqlə ingilis dili, sonrakı iki yeri Çin və fransız dilləri tutur.

**İLONA**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5178
**Sifariş:** 3683
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.